

# Ermənistan danışıqlar prosesini özü pozur, yoxsa şimaldan yeni plan var...

*Xəbər verildiyi kimi, 8 iyun 2022-ci il tarixində Ermənistanın Baş prokuroru Azərbaycan Respublikasının ərazisinə qanunsuz səfər edərək, qondarma qurumun "nümayəndəsi" ilə görüş keçirib. Bu qanunsuz səfərlə bağlı rəsmi Bakının mövqeyi də sərt oldu.*

Səh.9


UNİKAL

№20 (2105) 10 iyun 2022-ci il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.org

unikal-1@mail.ru




# Elman Rüstəmovla bağlı gözlənilməz iddia

## Mərkəzi Bankın sabiq rəhbəri niyə ittiham edildi?

*Bu günlərdə Konstitusiya Məhkəməsi Nazirlər Kabinetinin sorğusu əsasında "Banklar haqqında" Azərbaycan Respublikası Qanununun 71, 81 və 82-ci maddələrinə dair" Qərar qəbul edib. Qeyd edək ki, Hökumət qarşısında bu sorğu barədə təşəbbüs qaldıran qurum Əmanətlərin Sığortalanması Fondudur. Məhkəmə qərar verib ki, fiziki və ya hüquqi şəxslər tərəfindən ləğv prosesində olan kommersiya bankına kredit borcu ləğvedici Əmanətlərin Sığortalanması Fonduna ödənildiyi təqdirdə, həmin şəxslərin əmlakı üzərində Mərkəzi Bankın ipoteka hüququna xitam verilməsi və əmlaka mülkiyyət hüququnun məhdudlaşdırılmasının aradan qaldırılması ilə bağlı gözləntiləri əsaslı hesab edilməlidir.*

Səh.8




Səh.3

# Korrupsioner məmurların yeni həbs dalğası

## "Banklar daha çox rahat qazanc yollarına əl atırlar"



*Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü, deputat Rüfət Quliyev "Unikal"a müsahibə verib. Deputat bu ilin büdcəsinə ediləcək dəyişikliklərdən, bank kreditlərinin faizinin yüksək olmasından, dərmanların qiymətinin süni artırılmasından və digər məsələlərdən danışıb.*

Səh.4

## Hikmət Hacıyev BMT Baş Assambleyasının sədri ilə GÖRÜŞDÜ



*Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyası Xarici əlaqələr şöbəsinin müdiri Hikmət Hacıyev Birləşmiş Millətlər Təşkilatı (BMT) Baş Assambleyasının sədri Abdulla Şahidlə görüşüb. "Unikal" xəbər verir ki, görüşdə Azərbaycanın daim çoxtərəfli diplomatiyanı dəstəklədiyi vurğulanıb...*

Səh.2

## Azərbaycan generalları Ərdoğanla birgə hərbi təlimdə



*İyunun 9-da Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov "Efes-2022" çoxmillətli təliminin sonuncu günündə icra olunan tapşırıqları izləyib. Müdafiə Nazirliyindən "Unikal"a verilən məlumata görə, yüksək səviyyəli qonaqlar qismində təlimi izləmək üçün Türkiyə Respublikasının Prezidenti...*

Səh.6

# Sevda Yahyayeva: "Düşünür ki, bir mahnı oxuyub varlı olacağam"



***"Təsadüfi gələnlər var. Bəzən baxırsan ki, bu iş onluq deyil. Onların nə konsertləri var, nə bir şeyi... Onlar pikdə deyil. Onlar hələ ki, heç bir yerdə deyil".***

"Unikal" axşam.az-a istinadən xəbər verir ki, bu sözləri müğənni Sevda Yahyayeva "10-da görüşək" proqramında deyib. O bildirib ki, hazırda bir çox ifaçı sənətə mal-mülkə görə gəlib: "Kənardan bizim gördüyümüz iş çox asan görsənir: Dəbdəbəli, parlaq... Deyirlər ki, onlara nə var, bəxtəvərlər geyinib-keçinib oxuyurlar. Amma bizim sahə əslində çox çətindir. Çoxu elə bilir asandır. Bu sahəyə meyillənirlər ki, gəlib bir mahnı oxuyub, varlı olacam".

# Fərqanə Qasımovadan Əli Mirəliyevə SƏRT CAVAB



***Xalq artisti Alim Qasımovun qızı xanəndə Fərqanə Qasımovadan müğənni Əli Mirəliyevə cavab gecikməyib.***

"Unikal" xəbər verir ki, oxu.az-a açıqlama verən Fərqanə Qasımova Əli Mirəliyevin "o boyda Xalq artistinin qızına bax. Atası dərviş kimi, qızı isə hind üslubunda oxuyur" fikirlərinə münasibət bildirib:

"Alim Qasımov heç kimə heç zaman cavab verməyib, sənəti ilə hər kəsi susdurub. Mən də onun övladı-qızıyam, o cür bir sənətkar ailəsində yetişmiş xanəndəyəm. Ona görə mən də o cür insanlara cavab vermirəm. Xalqın gözü tərəzidir. Söhbət "Durnalar" ifasından gedirsə mən o ifa ilə çox sevilmişəm. Bir sənətçi mahnını ifa edəndə özünün yanaşması olmalıdır. Əgər belədirsə, deməli bu əsər yaşayır və yaşayacaq. Sənət varsa, sənətdə mütləq hərəkət, enerji, baxış tərzi, zəmanəyə görə dəyişiklik var", - deyə Qasımova açıqlamasında bildirib.

Qeyd edək ki, müğənni Əli Mirəliyev Cebhe.info-ya açıqlamasında "Ötən dəfə Fəqanə Qasımova sözlərini Molla Pənah Vaqifin yazdığı, Cahangir Cahangirovun bəstələdiyi "Durnalar" əsərini hind üslubunda oxuyurdu. Hətta Hindistandan gələnlər Azərbaycan musiqisi ilə göbək atırdılar. Bu qədər özbaşınalıq olmaz. Yeni mahnı olsa, deyərdim cəhənnəm, amma Cahangir Cahangirovun mahnısını hind üslubunda oxumağa sənə kim ixtiyar verib? Belə olmaz. Ona görə də musiqimiz bu gündədir" - bildirmişdi.



# "Hamısı görməmişlikdən irəli gəlir" - Lətifə Soyuöz

***"Müğənnilərdən kimin imkanı var gedib əməliyyat etdirir çıxır. Yoxdursa, ona jest edirlər, reklam qarşılığı olunur. Dostlara jest etmək problem deyil. Amma bunlar hamısı görgüsüzlüklə əlaqədardır".***

Bu sözləri müğənni Lətifə Soyuöz "Tarixin bir günü" proqramında deyib. Sənətçi reklam qarşılığında plastik əməliyyat etdirən sənət adamlarından danışıb.

Lətifə aparıcı Tarix Əliyevin (Tolik) "Müğənnilərin özlərini əlçatmaz kimi göstərməyə çalışmasına necə baxırsan" sualına "Hamısı görməmişlikdən irəli gəlir. İmkansız ola bilərsən, amma insanın qabiliyyəti olmalıdır. Əgər bir insan sonradan görürsə, ağırlığı qəbul edə bilmirsə, pafos başlayır. Bunu çox görmüşük, bəzən elə yerə gəlir ki, heç kimə lazım deyil" cavabını verib.

Müğənni uzun dırnaqlarını tənqid edənlərə də cavab verib: "Uzun dırnaqlarım var, xüsusi qulluq edirəm. Onlara baxmağı çox sevirəm. Evdə yemək bişirmirəm, bişirən var. Mənə bir vaxtlar "dırnağı çox uzundur" deyənlər indi eynisini edir. Amma onların ustası mənimki qədər ola bilməz. Mənim ustam Ukraynadan gəlib".

# Həmidə Ömərovanın oğlunun toyuna kimlər gəldi?

***Xəbər verdiyimiz kimi, Xalq artisti Həmidə Ömərova oğlu Rəhimə toy edib.***



Axşam.az xəbər verir ki, Rəhim Zülfiyyə adlı xanımla ailə qurub.

Ötən gün şəhər restoranlarından birində yer alan məclisdə bir çox sənət adamı iştirak edib. Onlar arasında daha çox aktyorlar yer alıblar.

H.Ömərovanı təbrik etməyə gələnlər arasında Xalq artisti Flora Kərimova da yer alıb.

# Qardaşına donor olan Nərminin vəziyyəti pisləşdi

***Bir neçə gün əvvəl qaraciyərinin bir hissəsini qardaşı Kamran Kərimbəyova verən müğənni Nərmin Kərimbəyovanın səhhəti ağırlaşıb.***

"Qafqazinfo" xəbər verir ki, bu səbəbdən ifaçı təcili olaraq reanimasiyaya yerləşdirilib. K.Kərimbəyovun səhhəti isə yaxşılaşmağa doğru gedir.

Qeyd edək ki, Nərminin qardaşı uzun illərdir "Hepatit B" xəstəliyindən əziyyət çəkir. Donor transplantasiyası Türkiyədə gerçəkləşdirilib.



# Səhiyyə Nazirliyindən tələbələrə müraciət

***Ölkə daxilində və xaricdə yerləşən ali və orta ixtisas tibb təhsili müəssisələrində təhsil alan tələbələrin ixtisasları üzrə digər təhsil müəssisəsinə köçürülməsi məsələləri ilə bağlı müraciətlər müvafiq sənədlərlə birgə 1 iyul 2022-ci il tarixinə kimi Səhiyyə Nazirliyinin İnsan resursları şöbəsinə təqdim olunmalıdır.***

Bu barədə "Unikal"a Səhiyyə Nazirliyindən məlumat verilib. Bildirilib ki, tələbələrin köçürülməsi ilə bağlı Azərbaycan Təhsil Nazirliyinin rəsmi internet səhifəsində www.transfer.edu.az portalında tətil dövründə müəyyən edilmiş müddətdə qeydiyyatdan keçmək və sənədləri elektron formada təqdim etmək üçün elan yerləşdiriləcək. Müəyyən ediləcək müddətdə www.transfer.edu.az portalına elektron ərizə ilə müraciət edilmədiyi halda köçürülmə məsələsinə baxılması mümkün olmayacaq

Ali tibb təhsili

Orta tibb təhsili

- Ərizə;
- Şəxsiyyəti təsdiq edən sənədin surəti;
- Köçürülmə səbəblərini təsdiq edən sənədlər (səhhəti ilə bağlı arayışlar, ailə qurması haqqında şəhadətnamə və s.);
- Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzinin (DİM) keçirdiyi imtahanlarda iştirak etdiyi halda topladığı bal və həmin ildə köçürülmək istədiyi təhsil müəssisəsində müvafiq istiqamət üzrə minimal keçid balı barədə DİM-dən arayış;
- Akademik arayış (akademik transkript) - tələbənin təhsil müddətində keçdiyi fənlər üzrə topladığı kreditləri (saatları) və qiymətləri (rəqəm və (və ya) hərflərlə) özündə əks etdirən (xaricdə təhsil alanlar üçün mövcud qaydada leqallaşdırılmış və Azərbaycan dilinə tərcümə olunmuş) sənəd;
- Təhsil haqqı borcunun olmaması;

Xaricdən köçürülənlər üçün əlavə olaraq:

- Ali təhsil müəssisəsinə qəbul olunarkən topladığı bal və ya DİM tərəfindən keçirilən imtahanlarda iştirak etməməsi haqqında sənəd;
- Xaricdə təhsil aldığı müddətdə gediş-gəlişi təsdiq edən rəsmi sənədlər;

Xaricdən köçürülənlər və ya ölkə ali təhsil müəssisələrinə bu imtahanların nəticələri ilə qəbul olunanlar üçün əlavə olaraq:

- Beynəlxalq səviyyəli imtahanlarda (SAT, TOEFL, İELTS və s.) qazandıqları nəticələri təsdiq edən rəsmi sənədlər;

Əcnəbi vətəndaşlar üçün əlavə olaraq:

- Azərbaycan Respublikasının vətəndaşlığına mənsubiyyətinin olması barədə Dövlət Miqrasiya Xidmətindən arayış.
- Ərizə;
- Şəxsiyyəti təsdiq edən sənədin surəti;
- Köçürülmə səbəblərini təsdiq edən sənədlər (səhhəti ilə bağlı arayışlar, ailə qurması haqqında şəhadətnamə və s.);
- Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzinin (DİM) keçirdiyi imtahanlarda iştirak etdiyi halda topladığı bal və həmin ildə köçürülmək istədiyi təhsil müəssisəsində müvafiq istiqamət üzrə minimal keçid balı barədə təhsil alan müəssisəsindən arayış;
- Akademik arayış (akademik transkript) - tələbənin təhsil müddətində keçdiyi fənlər üzrə topladığı kreditləri (saatları) və qiymətləri (rəqəm və (və ya) hərflərlə) özündə əks etdirən (xaricdə təhsil alanlar üçün mövcud qaydada leqallaşdırılmış və Azərbaycan dilinə tərcümə olunmuş) sənəd;
- Təhsil haqqı borcunun olmaması.

Xaricdən köçürülənlər üçün əlavə olaraq:

- Xaricdə təhsil aldığı müddətdə gediş-gəlişi təsdiq edən rəsmi sənədlər;

Əcnəbi vətəndaşlar üçün əlavə olaraq:

- Azərbaycan Respublikasının vətəndaşlığına mənsubiyyətinin olması barədə Dövlət Miqrasiya Xidmətindən arayış.

# Elman Rüstəmovla bağlı gözlənilməz iddia

## Mərkəzi Bankın sabiq rəhbəri niyə ittiham edildi?

***Bu günlərdə Konstitusiya Məhkəməsi Nazirlər Kabinetinin sorğusu əsasında "Banklar haqqında" Azərbaycan Respublikası Qanununun 71, 81 və 82-ci maddələrinə dair" Qərar qəbul edib. Qeyd edək ki, Hökumət qarşısında bu sorğu barədə təşəbbüs qaldıran qurum Əmanətlərin Sığortalanması Fondudur.***

Məhkəmə qərar verib ki, fiziki və ya hüquqi şəxslər tərəfindən ləğv prosesində olan kommersiya bankına kredit borcu ləğvedici Əmanətlərin Sığortalanması Fonduna ödənildiyi təqdirdə, həmin şəxslərin əmlakı üzərində Mərkəzi Bankın ipoteka hüququna xitam verilməsi və əmlaka mülkiyyət hüququnun məhdudlaşdırılmasının aradan qaldırılması ilə bağlı gözləntiləri əsaslı hesab edilməlidir.



Lakin sözügedən qərar bir sıra ekspertlərin narazılığına səbəb olub. Onlar həmin qərarı yanlış hesab edirlər. Məsələn, bank sektoru üzrə mütəxəssis, hüquqşünas Əkrəm Həsənov bildirib ki, haqqında danışılan qərara görə Mərkəzi Bank ləğv prosesində olan banklara verdiyi kreditlər üzrə təminat kimi götürdüyü girovlardan (ipotekalardan) məhrum oldu: "Söhbət ikili girov halından gedir. Yəni hər hansı borcalanın banka borcu üzrə qoyduğu ipoteka predmeti eyni zamanda həmin bankın Mərkəzi Bank qarşısında da girovla yüklü edilib. Sonra bank müflis olub. Buna görə də borcalan borcunu ödəməkdə maraqlı deyil. Axı borcu ödəsə belə, girov yüklülükdən azad edilməyəcək. Bunun üçün gərək bankın Mərkəzi Bank qarşısında da borcu bağlansın. Girovun dəyəri isə hər iki kreditin ödənilməsi üçün kifayət deyil. Qanuna görə bu halda ipoteka predmeti hərracda satılmalı, əvvəlcə Mərkəzi Bank pulunu götürməli, qalan vəsait isə müflis banka çatmalıdır.

Konstitusiya Məhkəməsi isə bu qənaətə gəldi ki, borcalan müflis banka olan borcunu bağladığı halda ipoteka yüklülükdən azad olunur və Mərkəzi Bank girovsuz qalır, yeni təminatsız kreditora çevrilir. Halbuki, Mərkəzi Bankın həmin ipotekaya hüququ daha ilkindir (üstündür). Konstitusiya Məhkəməsinin mövqeyinə gəlincə, güya borcalanın gözləntisi var idi ki, banka borcunu ödəsə, əmlakı girovdan azad olunacaq. Çox qəribə mövqedir! Axı o, Mərkəzi Bankla da ipoteka müqaviləsi bağlayıb. Deməli, başa düşməlidir ki, əmlakı iki kredit üzrə girovdadır. Buna görə də yalnız öz kreditinin ödənilməsi üzrə gözləntisinin olması heç cür anlaşılan deyil".

Ekspertin fikrincə, Konstitusiya Məhkəməsi məsələləri tərəflərin gözləntiləri əsasında həll edirsə, bəs niyə devalvasiya üzrə dollar borcu olanların əleyhinə qərar vermişdi? "Bax, onların tam gözləntisi var idi ki, devalvasiya olmayacaq. Amma bu gözləntini əvvəlcə Mərkəzi Bank, sonra da Konstitusiya Məhkəməsi puç etdi", - deyə hüquqşünas təəssüflənib.

Qeyd edək ki, həm Ə.Həsənovun, həm də bir sıra başqa ekspertlərin fikrincə, sözügedən kreditlərin çoxu Mərkəzi Bank tərəfindən kobud qanun pozuntuları ilə verilib. Onların sözlərinə görə, bu səbəbdən sabiq rəhbəriyi məsuliyyətə cəlb edilməlidir. Hesab olunur ki, Konstitusiya Məhkəməsinin məlum qərarı hər şeyi növbəti dəfə alt-üst etdi. Sitat: "Belə çıxır ki, ipoteka saxlayanı çox asanlıqla hüququndan məhrum etmək olar. Mülki hüquq ilk növbədə kreditorların maraqlarını qorumalıdır. Əks halda, ölkəyə sərmayə qoyan olmayacaq..."

Xatırladaq ki, Mərkəzi Bankın keçmiş rəhbərliyi uzun müddətdir istər devalvasiya qərarlarına, istərsə də dollarla kreditlərə görə tənqid hədəfində idi. Mütəxəssislər bildirirdilər ki, həmin yanlış addımlar ölkənin bank sektoruna da, ümumilikdə iqtisadiyyatına da baha başa gəlib. Hətta 27 il Azərbaycanın baş bankına rəhbərlik etmiş Elman Rüstəmovun bu ilin aprelində postundan kənarlaşdırılmasında da sözügedən səhvlərin ciddi rolu olduğunu düşünənlər var. Təkcə bir məqamı vurğulayaq: 2014-cü ilin sosial-iqtisadi yekunları, qarşıda duran vəzifələrə həsr olunmuş müşavirədə çıxışı zamanı E.Rüstəmov ölkədə makroiqtisadi sabitliyin tam qorunduğunu fəxarətlə qeyd etmişdi. Sonra isə əlavə etmişdi: "2014-cü ildə qonşu ölkələrdə, bölgədə gedən mürəkkəb proseslərlə bağlı yaranmış psixoloji təzyiqlərə baxmayaraq, vaxtında görülmüş tədbirlər nəticəsində manatın məzənnəsi sabit saxlanılmışdır. Bunun üçün Mərkəzi Bank valyuta bazarının həm nağd, həm də qeyri-nağd seqmentlərində çevik tənzimləmə tədbirləri görmüşdür".

E.Rüstəmovun haqqında bəhs etdiyi "çevik tənzimləmə tədbirlərinin" nədən ibarət olduğunu kimsə bilmirdi. Bircə o məlumdur ki, sözügedən "tədbirlər"in "nəticəsi" sabiq "baş bankirin" elə həmin çıxışındaca dediyi "Manatın sabitliyinin təmini bizim ən öndə olan məqsədlərimizdən biridir və biz bu məqsədin reallaşmasını təmin edəcəyik" sözlərinin üzərindən cəmi 40 gün keçdikdən sonra - 2015-ci il fevralın 21-də ortaya çıxdı: Mərkəzi Bank manatın məzənnəsini kəskin şəkildə aşağı saldı, ilin sonunda yenidən eyni addımı atdı.

Beləliklə, aydın oldu ki, ölkənin maliyyə-bank sektoruna faktiki rəhbərlik edən, uzun illər boyu pul-kredit siyasətinin müəyyənləşməsində həlledici söz sahibi olan bir şəxs, necə deyərlər, burnunun ucundan uzağı görə bilməyib. Ya da görüb, lakin susmağa üstünlük verib.

Nəticədə isə Azərbaycan 10 milyard dollar valyuta itirdi!

Üstəlik, bir çox banklar "bank sektorunun sağlamlaşdırılması" adı altında bağlandı.

Bunları ümumiləşdirsək, nə səlahiyyət müddətinin bitməsinə 3 il qalmış Rüstəmovun postundan kənarlaşdırılmasına təəccüblənmək lazımdır, nə də bəzi ekspertlərin Mərkəzi Bankın keçmiş rəhbərliyinin yol verdikləri ciddi yanlışlıqlara görə hüquqi məsuliyyətə cəlb edilməsi barədə açıqlamalarına...

***Sənan Mirzə***

# Ermənistan danışıqlar prosesini özü pozur, yoxsa şimaldan yeni plan var...

***Xəbər verildiyi kimi, 8 iyun 2022-ci il tarixində Ermənistanın Baş prokuroru Azərbaycan Respublikasının ərazisinə qanunsuz səfər edərək, qondarma qurumun "nümayəndəsi" ilə görüş keçirib. Bu qanunsuz səfərlə bağlı rəsmi Bakının mövqeyi də sərt oldu.***

Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsinin Ermənistanın Baş prokurorunun Azərbaycan ərazilərinə qanunsuz səfərinə dair şərhində deyilir ki, Ermənistan tərəfinin bu məsuliyyətsiz və təxribatçı addımı, bu ölkənin normallaşma prosesində səmimi olmadığını, o cümlədən beynəlxalq vasitəçilərin səylərinə kölgə saldığını bir daha nümayiş etdirir.

"Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına qarşı atılan bu addım beynəlxalq hüququn fundamental norma və prinsiplərini pozmaqla yanaşı, post-münaqişə mərhələsində Ermənistan və Azərbaycan arasında münasibətlərin normallaşmasına, o cümlədən bölgədə sülh və təhlükəsizliyin bərqərar olması istiqamətində göstərilən səylərə ciddi xələl gətirir. Ermənistan tərəfinin bu məsuliyyətsiz və təxribatçı addımı, bu ölkənin normallaşma prosesində səmimi olmadığını, o cümlədən beynəlxalq vasitəçilərin səylərinə kölgə saldığını bir daha nümayiş etdirir. Vurğulamaq istərdik ki, bu təxribatçı addımın bütün məsuliyyəti Ermənistan tərəfinin üzərindədir", - XİN-in məlumatında bildirilir.

Politoloq Məhəmməd Əsədullazadə "Unikal"a açıqlamasında bildirib ki, Ermənistan Baş prokurorunun qanunsuz olaraq Azərbaycanın ərazisinə keçib Xankəndinə gələrək separatçılarla görüşü birbaşa rəsmi Yerevanın bir daha Azərbaycanın ərazi bütövlüyünü tanımadığını göstərir. Onun fikrincə, Rusiya sülhməramlı qüvvələri belə bir səfərlərin qarşısını almalı idi: "Nikol Paşinyanın Baş prokuroru Xankəndinə göndərməsi əsasən separatçılarla bağlı tədbir görməsi də istisna deyil. Çünki separatçılar burada N. Paşinyana qarşıdır və onun əleyhinə mitinqlər təşkil edirlər. Təbii ki, rəsmi Yerevanın A.Arutunyanı həbs etməsi mümkün deyil. Onu Rusiya sülhməramlı qüvvələri mühafizə edir. A.Arutunyan bu gün Yerevanın təlimatı ilə deyil, sülhməramlıların komandiri Volkova tabedir. Qeyd edim ki, Laçın dəhlizindən yeni yol tamamlanandan sonra Ermənistandan belə səfərlərin qarşısı alınmalıdır".

Müsahibimiz onu da nəzərə çatdırıb ki, Yeni Laçın dəhlizi yolu ilə bağlı Rusiya ilə Azərbaycan arasında problemlərin ortaya çıxması mümkündür, çünki Rusiya bu yolun da Azərbaycanın nəzarətində olmasını qəbul etməyəcək. Onun qənaətincə, Prezident İlham Əliyevin bu problemi də həll etməsi mümkündür. Belə ki, Türkiyə ilə birgə kordinasiyalı fəaliyyət Moskvanın deskuruktiv siyasətinin qarşısını alacaq.

Maraqlı məqamlardan biri də odur ki, bu proses Rusiyanın Xrici işlər naziri Sergey Lavrovun Ermənistana səfəri ərəfəsində baş verib. Adəti üzrə Ermənistandan yana mövqe sərgiləyən Lavrovun səfər zamanı verdiyi bəyanat da birmənalı qarşılanmayıb. İrəvanda səfərdə olan Rusiyanın xarici işlər naziri Sergey Lavrov erməni həmkarı Ararat Mirzoyanla keçirdiyi görüşün yekunlarına dair keçirilən mətbuat konfransında Qarabağla bağlı bir sıra məsələlər barədə münasibət bildirib. O deyib ki, Rusiya hərbçiləri Qarabağda Fərrux yaşayış məntəqəsi ətrafında vəziyyəti prioritet olaraq nəzərdən keçirir.

"Vəziyyətə gəldikdə, rusiyalı hərbçilər və bizim erməni dostlarımız bu barədə yaxşı məlumatlıdır, bunu öz prioritetlərindən biri kimi saxlayır. Bu vəziyyətin deeskalasiyası baxımından "yerdə" müəyyən nəticələr var. Bizdə anlayış var ki, delimitasiya ilə bağlı artıq başlayan predmetli iş çərçivəsində bu məsələlərə baxılacaq və mütləq həll olunacaq", - deyə Lavrov vurğulayıb.

Qeyd edək ki, Rusiya rəsmilərinin, xüsusilə Rusiya Müdafiə Nazirliyinin Xocalının Fərrux kəndindəki durumla bağlı açıqlamaları əvvəllər də Azərbaycan tərəfinin sərt reaksiyasına səbəb olmuşdu. Azərbaycan Müdafiə Nazirliyinin rəsmi olaraq yaydığı bəyanatda qeyd olunmuşdu ki, Fərrux kəndi Azərbaycanın nəzarəti altındadır: "Azərbaycan Ordusunun ölkəmizin suveren ərazilərinin tərkib hissəsi olan Fərrux kəndi və ətraf yüksəkliklərdəki mövqelərində heç bir dəyişiklik baş verməyib".

XİN Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva KİV-in Rusiya Federasiyasının xarici işlər nazirinin Ermənistana səfəri çərçivəsində keçirilən mətbuat konfransında Xocalı rayonunun Fərrux kəndi ilə əlaqəli vəziyyətin Azərbaycan və Ermənistan arasında sərhədlərin delimitasiyası kontekstində nəzərdən keçiriləcəyinə dair fikrini şərh edib.

"Unikal" xəbər verir ki, Leyla Abdullayeva qeyd edib ki, Azərbaycan və Ermənistan tərəfindən təsis edilmiş delimitasiya komissiyalarının fəaliyyəti əvvəlcədən nəzərdə tutulduğu kimi məhz iki ölkənin dövlət sərhədinin delimitasiyası məqsədini güdür. "Bu proses çərçivəsində Azərbaycan-Ermənistan dövlət sərhədindən kənar hər hansı bir məsələyə, o cümlədən Azərbaycan Respublikasının Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi ərazilərlə bağlı məsələyə baxılması nəzərdə tutulmur", - XİN rəsmisi vurğulayıb.



Hərbi ekspert Ədalət Verdiyev isə bildirib ki, Azərbaycan Ordusu azad etdiyi ərazilərdən geri çəkilmək niyyətində deyil. Lavrovun fikirlərinə toxunan ekspert Fərrux zəfərinin Azərbaycan üçün qürur mənbəyi olduğunu deyib: "Fərruxda bayrağımızın qaldırılması Azərbaycanın Ermənistana verdiyi çox ciddi mesajdır. Bu mesajın altında yatan məqam ondan ibarətdir ki, ərazilərimizdə, o cümlədən Rusiya sülhməramlılarının müvəqqəti nəzarətində olan Qarabağ torpaqlarında ermənilərin təhlükəsizliyinə zəmanəti yalnız Azərbaycan Ordusu verə bilər".

Bu mənada ekspert hesab edir ki, Lavrovun Fərrux kəndi barədə fikirləri erməni ictimaiyyətini sakitləşdirməyə hesablanıb. "Azərbaycan Ordusunun yerləşdiyi heç bir ərazidən geri çəkilmək niyyəti yoxdur. İndiyədək olmayıb və olmayacaq. Əksinə Azərbaycan yaxın gələcəkdə rusların müvəqqəti yerləşdiyi ərazilərdə nəzarətini daha da genişləndirməyə can atacaq",- deyə hərbi ekspert qeyd edib.

Nəzərə alsaq ki, bu günə qədər Ermənistanın münaqişəni daha da alovlandırması, sülhdən yayınması, sərhəd məsələsində müxtəlif təxribat xarakterli addımlar atmasında Rusiyadan gələn müəyyən dəstək nəticəsində də baş verib, o zaman hazırkı qeyri-müəyyənliyin davam etməsini də bu cür qəbul etmək olar. Əslində, Lavrovun belə bir dolaşıq bəyanat verməsi də buna əyani sübutdur. Hər halda, şimaldakı bəzi dairələrin Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanmaması, qeyri-müəyyənliyin davam etməsi üçün səylər göstərdiyi ortadır.

**Z.Məmmədli**



## "Azərsu" Formula 1-ə görə komissiya yaratdı

***Bakı şəhərində keçiriləcək növbəti Formula-1 yarışları ilə əlaqədar xidmət təşkilatı kimi "Azərsu" Açıq Səhmdar Cəmiyyəti tərəfindən mühüm tədbirlər həyata keçirilir.***

"Unikal" xəbər verir ki, yarışların keçiriləcəyi küçə və prospektlərin, istifadə olunacaq idman və turizm obyektlərinin içməli və tullantı su sistemlərinin fəaliyyətinin dayanıqlığını təmin etmək üçün lazımi işlər görülüb. Tədbirə yüksək səviyyədə hazırlaşmaq və qarşıya çıxa biləcək problemlərin operativ qaydada həlli məqsədilə "Azərsu" ASC-də komissiya yaradılıb, Tədbirlər Planı təsdiq edilib. Eyni zamanda, işlərin operativ və koordinasiyalı aparılması məqsədilə qərargah yaradılıb.

Tədbirlər Planına uyğun olaraq yarışların keçiriləcəyi ərazilərdə içməli və tullantı su infrastrukturlarının normal fəaliyyətini təmin etmək və yarana biləcək qəza hallarının operativ şəkildə aradan qaldırılması məqsədilə monitorinq və qiymətləndirmə işləri aparılıb. Yarışların keçiriləcəyi yerlərdə içməli su xətlərinin üzərindəki siyirtmələrin istismar vəziyyəti yoxlanılıb. Marşrut boyu bütün siyirtmə quyuları və yanğın hidrantları təftiş olunub, mövcud siyirtmələrin və yanğın hidrantlarının işlək vəziyyətdə olması üçün profilaktiki tədbirlər görülüb.Mexaniki vasitələrlə və xüsusi təmizləyici maşınlarla 9 km-dək kanalizasiya xətləri, 300-dən artıq kanalizasiya baxış quyusu və barmaqlıq təmizlənib. Yarışların keçiriləcəyi günlərdə ehtimal olunan qəza hallarının operativ şəkildə aradan qaldırılması məqsədilə xüsusi briqadalar yaradılıb və dislokasiya yerləri müəyyən edilib. Qəza briqadalarının maşın və avadanlıqlarla, mal-materialla təmin olunması üçün zəruri tədbirlər görülüb.

"Azərsu" ASC-nin "Bakı Sukanal", Səbail, Yasamal və Nəsimi rayon sukanal idarələrinin 80-dək əməkdaşı təlimlərə cəlb olunub. Təlimlərdə qəza hallarının operativ şəkildə aradan qaldırılması, əməyin təhlükəsizliyi və digər məsələlər barədə məlumatlar verilib. Təlimə cəlb olunan işçilər nəzəri biliklərlə yanaşı, praktiki məşqlərdə də iştirak ediblər.

Qeyd edək ki, yarışlarla əlaqədar idman və turizm obyektlərinin içməli və tullantı su sistemlərinin fəaliyyətinə nəzarət də gücləndirilib. Bu məqsədlə "Azərsu" ASC-nin mütəxəssisləri tərəfindən mütəmadi olaraq obyektlərin içməli və tullantı su sistemlərinə baxış keçirilir, aşkarlanmış nöqsan və çatışmazlıqların aradan qaldırılması istiqamətində tədbirlər görülür, sahibkarlıq subyektlərinə tövsiyələr verilir.

## Bakı, Sumqayıt, Abşeronda iyunun pensiyaları ödənildi

***Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Sosial Müdafiə Fondu tərəfindən bu gün Bakı və Sumqayıt şəhərləri, Abşeron rayonu üzrə iyun ayının pensiyaları ödənilib.***

Nazirlikdən "Unikal"a verilən məlumata görə, vətəndaşlar pensiyalarını bank kartları vasitəsilə müvafiq bankların bankomatlarından əldə edə bilərlər.

Yaxın günlərdə respublikamızın digər bölgələri üzrə pensiyalar, həmçinin güzəştli şərtlərlə pensiya hüququna malik şəxslərin pensiyaları da ödəniləcək.

## Azərbaycan mülki şəxsi erməni tərəfinə qaytardı

***Azərbaycan azaraq hərbçilərimizin nəzarətində olan əraziyə keçən mülki şəxsi erməni tərəfinə qaytarıb.***

"Unikal" "Sputnik Armenia"ya istinadən xəbər verir ki, proses Rusiya sülhməramlı kontingentinin vasitəçiliyi ilə baş tutub.

69 yaşlı A.A. bu gün saat 12:00-da erməni tərəfinə təhvil verilib.

# Prezident yol tikintisinə 1 milyon manat ayırdı



***Prezident İlham Əliyev Saatlı rayonunun Məmmədabad-Genişkənd avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.***

"Unikal" xəbər verir ki, Sərəncama əsasən, dörd min nəfər əhalinin yaşadığı 2 yaşayış məntəqəsini birləşdirən Məmmədabad-Genişkənd avtomobil yolunun tikintisi məqsədilə "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.26.18-ci yarımbəndində göstərilmiş məbləğin 1 milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılıb.

Maliyyə Nazirliyi bu Sərəncamda göstərilən məbləğdə maliyyələşməni təmin etməli, Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etməlidir.

# Ərdoğan seçkilərdə namizəd olacağını açıqladı



***Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan 2023-cü ildə baş tutacaq prezident seçkilərində namizəd olacağını açıqlayıb.***

"Unikal" xəbər verir ki, bunu dövlət başçısı İzmirdə çıxış edərkən söyləyib.

Türkiyə müxalifətinin liderlərindən olan Kamal Kılıçdaroğlunu tənqid edən dövlət başçısı bildirib:

"Namizədlik məsələsini daha da uzada bilməyəcəksən. Seçki qarşıdakı ilin iyun ayında keçiriləcək. Qaçacaq yerin yoxdur, cənab Kamal. Bax deyirəm, Cümhur İttifaqının namizədi Tayyib Ərdoğandır".

# Kamran Əliyev Xocavəndə yeni prokuror təyin etdi



***Ağcabədi rayon prokurorunun müavini Taleh Osmanov tutduğu vəzifəsindən azad edilib.***

"Unikal" xəbər verir ki, bununla bağlı Baş prokuror Kamran Əliyev əmr imzalayıb.

Baş prokurorun digər əmri ilə, T.Osmanov Xocavənd rayon prokuroru təyin olunub.

Baş redaktor:
**Zaur Əhməd**

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2500

# Zelenski Putinə qarşı sanksiyalar tətbiq ETDİ

***Ukrayna Prezidenti Vladimir Zelenski Rusiya Prezidenti Vladimir Putinə qarşı sanksiyaların tətbiq edilməsi barədə sərəncam imzalayıb.***

"Unikal" TASS-a istinadən xəbər verir ki, Ukrayna Putinlə yanaşı, XİN başçısı Sergey Lavrov, Baş nazir Mixail Mişustin, müdafiə naziri Sergey Şoyquya və s. sanksiya tətbiq edib.

# İlham Əliyev İran Prezidentinə başsağlığı VERDİ

***Prezident İlham Əliyev İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisiyə başsağlığı verib.***

"Unikal" xəbər verir ki, başsağlığında deyilir:

"Hörmətli cənab Prezident,

Məşhəd-Yəzd istiqamətində hərəkət edən sərnişin qatarının qəzaya uğraması nəticəsində insanların həlak olması və xəsarət alması barədə xəbər bizi son dərəcə kədərləndirdi.



Bu ağır faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün İran xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananların tezliklə sağalmasını arzulayıram.

Allah rəhmət eləsin"!

# Hikmət Hacıyev BMT Baş Assambleyasının sədri ilə GÖRÜŞDÜ

***Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyası Xarici əlaqələr şöbəsinin müdiri Hikmət Hacıyev Birləşmiş Millətlər Təşkilatı (BMT) Baş Assambleyasının sədri Abdulla Şahidlə görüşüb.***

"Unikal" xəbər verir ki, görüşdə Azərbaycanın daim çoxtərəfli diplomatiyanı dəstəklədiyi vurğulanıb və Qoşulmama Hərəkatının sədri kimi bu istiqamətdə gördüyü işlər müzakirə edilib. Xatırladaq ki, BMT-nin protokol qaydalarına əsasən, rəsmi görüşlərdə BMT-nin və bu təşkilatın rəhbər vəzifəli nümayəndəsinin təmsil etdiyi dövlətin bayraqları qoyulur.



# Orduda döyüş atışlı təlimlər keçirilir

***Müdafiə Nazirliyinin rəhbər heyətinin iştirakı ilə Azərbaycan Ordusunun ümumqoşun poliqonlarında müxtəlif qoşun növlərinin döyüş atışlı intensiv taktiki təlimləri keçirilir.***

MN-dən "Unikal"a verilən məlumata görə, təlimlərin keçirilməsində əsas məqsəd bölmələrin döyüş qabiliyyətinin artırılması, şəxsi heyətin praktiki vərdişlərinin inkişaf etdirilməsi ilə peşəkarlıq səviyyəsinin daha da yüksəldilməsi, qoşunların idarəetmə orqanlarının qarşılıqlı fəaliyyətinin təkmilləşdirilməsidir.

Quru Qoşunları, Hərbi Hava Qüvvələri, Hərbi Dəniz Qüvvələri və Xüsusi Təyinatlı Qüvvələrin bölmələrinin cəlb edilməsi ilə keçirilən təlimlərin əsas xüsusiyyəti Vətən müharibəsi və digər müasir müharibələrin təcrübəsinə əsaslanan yeni taktiki hərəkətlərin yerinə yetirilməsi, o cümlədən şərti düşmənin uzaqdan aşkar olunması sisteminin geniş tətbiqi ilə onun daha effektiv məhv edilməsidir.

Təlimlərin gedişi barədə komandirlərin və qərargah zabitlərinin məruzələri dinlənilir, kəşfiyyat məlumatları əsasında düşmənin vəziyyəti və ərazinin xüsusiyyətləri öyrənilir, silahlanmaya yeni daxil edilən cihaz və vasitələrin tətbiqi ilə bölmələrin qarşılıqlı fəaliyyəti təşkil olunur.

Təlimlərin ssenarisinə əsasən, aşkar olunan şərti düşmən hədəfləri müxtəlif aviasiya vasitələri, motoatıcı, artilleriya və tank bölmələri tərəfindən qarşılıqlı əlaqədə məhv edilir.

# Polkovnik-leytenant faciəvi şəkildə həlak oldu

***Vətən Müharibəsi iştirakçısı, polkovnik-leytenant Şöhrət Namazov avtomobil qəzasında həlak olub.***

"Unikal" "Qafqazinfo"ya istinadən xəbər verir ki, hadisə dünən Gəncədə baş verib.

Axşam saat 22:00 radələrində Gəncə şəhəri, Gülüstan qəsəbə sakini R.İsmayılov idarə etdiyi "KİA" markalı avtomobillə yolu keçən Məhsəti qəsəbə sakini Şöhrət Namazovu vurub. Nəticədə piyada xəstəxanaya aparılarkən ölüb. Gəncə Şəhər Baş Polis İdarəsində araşdırma aparılır.



Qeyd edək ki, Şöhrət Namazov 2016-cı il Aprel döyüşlərinin və Vətən Müharibəsi iştirakçısı olub. Polkovnik-leytenant rütbəsi daşıyan Şöhrət Namazov bu yaxınlarda ordudan ehtiyata buraxılmışdı.

# Daha 15 nəfər COVID-19-a yoluxdu

***Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 15 yeni yoluxma faktı qeydə alınıb, 7 nəfər müalicə olunaraq sağalıb.***

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Unikal"a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslərdən vəfat edən olmayıb.

İndiyədək ümumilikdə 792 847 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 783 070 nəfər müalicə olunaraq sağalıb, 9 714 nəfər vəfat edib, aktiv xəstə sayı 63 nəfərdir.

Ölkədə son sutka ərzində 1 988, hazırkı dövrədək isə 6 916 588 test aparılıb.



# Korrupsioner məmurların yeni həbs dalğası

## Dövlətin və xalqın cibinə girənlərin qandallanması azdır, cəzaların daha sərt və güzəştsiz olması da vacibdir

***Azərbaycanın bəzi şəhər və rayonlarında torpaqların özəlləşdirilməsi zamanı qanunsuz əməllərə yol vermiş Əmlak Məsələləri Dövlət Xidmətinin və bələdiyyələrin vəzifəli şəxsləri məsuliyyətə cəlb ediliblər. Bu barədə Baş Prokurorluğun Mətbuat Xidmətindən verilən məlumatda bildirilib ki, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin və bələdiyyələrin vəzifəli şəxslərinin qanunsuz əməlləri ilə əlaqədar Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində istintaqı aparılan cinayət işi üzrə Dövlət Xidmətinin Şirvan şəhər şöbəsinin rəisi Nazim Səfərov, Ucar ərazi şöbəsinin rəisi Amil Aslanov, Qazax rayonu Daş Salahlı bələdiyyəsinin sədri Asif Yusifov, Şəki rayon Qoxmuq bələdiyyəsinin sədri Etibar Eyvazov və Kürdəmir Rayon İcra Hakimiyyəti başçısı Aparatının Sosial-İqtisadi İnkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdir müavini Ruslan Əliyevin daha əvvəl iş üzrə cəlb edilmiş təqsirləndirilən şəxslərlə birlikdə cinayətkar fəaliyyətdə iştirak etmələri müəyyən edilib.***

Belə ki, qeyd edilən şəxslərin 2020-2022-ci illər ərzində Torpaqların dövlət idarəetməsinin təşkili və geodeziya şöbəsinin sektor müdiri İldırım Məmmədov və digər təqsirləndirilən şəxslərlə qabaqcadan əlbir olaraq xidməti vəzifələrinin icrası ilə əlaqədar bələdiyyə mülkiyyətində olan torpaq sahələrinin mülkiyyətə, istifadəyə və icarəyə verilməsinə dair müsbət rəyin verilməsinə görə ayrı-ayrı şəxslərdən müxtəlif məbləğlərdə pul vəsaitlərini rüşvət qismində almalarına əsaslı şübhələr müəyyən edilib.



İstintaq zamanı toplanan sübutlarla yuxarıda adları qeyd edilən şəxslərə (cəmi 10 təqsirləndirilən şəxsə) Cinayət Məcəlləsinin 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə etmə ağır nəticələrə səbəb olduqda), 311.3.1, 311.3.2, 311.3.3 (rüşvət alma külli miqdarda törədildikdə), 312.1 (rüşvət vermə) və digər maddələri ilə ittiham elan edilməklə barələrində həbs, ev dustaqlığı və digər qətimkan tədbirləri seçilib.

Hazırda qanunsuz əməllərə yol vermiş digər vəzifəli şəxslərin müəyyən edilərək məsuliyyətə cəlb edilməsi istiqamətində istintaq davam edir.

Bundan başqa, Milli Arxiv İdarəsinin Şirvan filialının rəisi Hamlet Hüseynov və digər idarə əməkdaşları da saxlanılıb. Həbslərin yeyintinin, korrupsiyanın az qalsın olmadığı güman edilən bir idarədə - Milli Arxiv İdarəsinin Şirvan şöbəsində aparılması təəccüb doğurur; lakin verilən məlumatdan aydın olur ki, filial rəisinin 2022-ci ilin aprel-may aylarında torpaq sahəsi üzrə arxivdə olan zəruri sənədlərin, eləcə də əmək stajlarının artıq hesablanması məqsədi ilə saxta arxiv arayışı əldə etmək üçün ona müraciət etmiş ayrı-ayrı vətəndaşlardan müxtəlif məbləğlərdə pul vəsaitini rüşvət qismində almasına əsaslı şübhələr müəyyən edilib.

Hamlet Hüseynova Cinayət Məcəlləsinin 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə ağır nəticələrə səbəb olduqda) və 311.3.2 (rüşvət alma təkrar törədildikdə) maddələri ilə ittiham elan edilməklə məhkəmənin qərarı ilə barəsində həbs qətimkan tədbiri seçilib.

Göründüyü kimi, Azərbaycanda korrupsioner, rüşvətxor məmurların yeni həbs dalğasına start verilib. Son illərdə daha da güclənən, yuxarı, orta və aşağı ranqlı çox sayda vəzifəli şəxsin həbsi ilə müşayiət olunan bu prosesin növbəti mərhələsinin davam edəcəyi, qarşıda başqa həbslərin də reallaşacağı şübhə doğurmur. Eyni zamanda ortaya bəzi maraqlı məqamlar çıxır. Əvvəla, sual yaranır ki, niyə vəzifəli şəxslər özlərindən əvvəlki məmur həbslərindən nəticə çıxarmır, obrazlı desək, "gözü çıxmış qardaşlarından" dərs almırlar? Doğrudanmı, tamah, pul-para, var-dövlət onlar üçün bürokratik şərəfdən də, dövlətə və vətəndaşa layiqli xidmət hissindən də, azadlıq duyğusundan da daha önəmli, daha qiymətlidir?

İkincisi, bir çoxlarımız hesab edirdik ki, işğal olunmuş torpaqlarımızın azadlığı uğrunda 44 günlük Vətən müharibəsi ordumuzun şanlı qələbəsi ilə başa çatdıqdan, minlərlə qeyrətli vətən övladının qanı və canı bahasına 30 ilə yaxındır erməni caynağında olan yurdlarımız işğaldan azad edildikdən sonra artıq kimlərsə yenə də mənimsəmə ilə, rüşvətxorluqla məşğul olmayacaqlar, canını torpağa fəda edən şəhidlərin müqəddəs ruhundan, əziz xatirəsindən, sağlamlıqlarını itirən qazilərin fədakarlığından, əzmindən utanacaq və qanunsuz, cinayətkar əməllərə qol qoymayacaqlar. Övladlarını vətənin ərazi bütövlüyünün təmin edilməsi uğrunda qurban verən ataların, anaların göz yaşından xəcalət çəkəcəklər. Özünün ehtiyacı olduğu halda son qəpiyini belə Silahlı Qüvvələrə Yardım Fonduna keçirən sadə insanların ləyaqətindən, genişürəkliliyindən, vətən, bayraq, millət, Qarabağ sevgisindən ibrət alacaqlar.

Əsla və əsla unutmayacaqlar ki, bundan sonra rüşvətxorluq, korrupsiya yalnız qanunvericiliklə qadağan edilmiş əməl - cinayət deyil. Anlayacaqlar ki, bu həm də Qarabağda görülən nəhəng abadlıq, bərpa-quruculuq işlərinə əngəl olmaq, bir sözlə, mənəvi məsuliyyətsizlikdir. Bir az da konkretləşdirsək, vətənə, Böyük Zəfərə, Qarabağa xəyanətin başqa bir adı, başqa bir formasıdır.

Lakin baxıb görürük ki, bir sıra məmurlar üçün hələ də heç nə dəyişməyib. Onlar utanıb-eləmədən rüşvətə, korrupsiyaya bulaşmağa davam edirlər.

Odur ki, belələrinə qarşı cəza tədbirləri sərt olmalı, heç bir güzəşt edilməməli, qandallandıqdan bir müddət sonra hansısa yollarla cəzaları azaldılmamalı, cəmi bir-iki il həbs yatdıqdan sonra azadlığa buraxılmamalıdırlar. Belədə həm bu cür məmurlar fikirləşirlər ki, onsuz da ağır cəza almayacaqlar, bir yol tapıb həbsdən çıxacaqlar və ona görə də "gözü çıxmış qardaşlarından" dərs götürmək yerinə büdcə vəsaitlərini, xalqın cibini soyub-talamağa davam edirlər, həm də yalnız hüquqi yox, mənəvi məsuliyyətlərini itirərək daha da azğınlaşırlar, şəhid ailələrinə, qazilərə laqeyd münasibətdən, özbaşınalıqdan belə çəkinmirlər.

***Murad İbrahimov***



# Sahibə Qafarova Misirin Azərbaycandakı səfiri ilə görüşdü

***İyunun 9-da Milli Məclisin sədri Sahibə Qafarova Misir Ərəb Respublikasının ölkəmizdəki səfiri Hişam Məhəmməd Nadem Abdel Həmidlə görüşüb.***

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən "Unikal"a verilən məlumata görə, Milli Məclisin sədri, diplomata yeni vəzifəsində uğurlar arzulayıb.

Onun Azərbaycanda çalışdığı müddətdə iki ölkə arasındakı əlaqələrin daha da inkişaf edəcəyinə inamını ifadə edib.

Spiker Azərbaycanla Misirin dost ölkələr olduğunu və dövlətlərarası münasibətlərimizin hazırkı səviyyəsindən məmnunluğunu bildirib. Sahibə Qafarova diqqətə çatdırıb ki, bu il Azərbaycanla Misir arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyini qeyd edirik və bu illər ərzində ölkələrimiz arasında bir çox sahələrdə sıx əməkdaşlıq formalaşıb.

Milli Məclisin sədri bildirib ki, ölkələrimiz BMT, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı çərçivəsində sıx əməkdaşlıq edirlər. Söhbət zamanı iki ölkə arasında iqtisadiyyat, mədəniyyət, təhsil, turizm sahələrində əlaqələrin inkişafı və digər mövzularda danışılıb.

Spiker bildirib ki, parlamentlərarası münasibətlər ölkələr arasında ikitərəfli və çoxtərəfli əlaqələrin mühüm tərkib hissələrindən biridir. Bu baxımdan parlament dostluq qruplarının fəaliyyəti təqdirəlayiqdir. Ölkələrimizin qanunverici orqanları arasında münasibətlərin daha da möhkəmləndirilməsi üçün yaxşı imkanlar var.

Milli Məclisin sədri qarşılıqlı təmasların, səfərlərin xalqlarımızın daha da yaxınlaşması baxımından əhəmiyyətini vurğulayıb, Azərbaycan tərəfinin təşəbbüsü ilə yaradılmış Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin fəaliyyəti barədə məlumat verib.

Görüşdə 44 günlük Vətən müharibəsində Azərbaycanın möhtəşəm Qələbəsindən danışan Sahibə Qafarova bildirib ki, bu qələbə regionda yeni reallıqlar yaradıb. Azərbaycan davamlı sülhün, sabitliyin, münasibətlərin normallaşdırılmasının tərəfdarıdır və bunun üçün Ermənistana bir sıra təkliflər irəli sürüb. İnanırıq ki, tezliklə iki ölkə arasında sülh sazişi imzalanacaq və bu, bütün region ölkələrinin inkişafına öz töhfəsini verəcək.

Misir Ərəb Respublikasının ölkəmizdəki səfiri Hişam Məhəmməd Nadem Abdel Həmid təbrikə görə təşəkkürünü bildirib və iki ölkə arasındakı münasibətlərin bundan sonra da inkişafı üçün səylə çalışacağını diqqətə çatdırıb. O, Azərbaycanın Qoşulmama Hərəkatına uğurlu sədrliyinə və ölkəmizin təşəbbüsü ilə bu qurumun Parlament Şəbəkəsinin yaradılmasına görə təbriklərini çatdırıb.

Görüşdə səfir artıq Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə səfər etdiyini və həqiqətləri öz gözləri ilə gördüyünü diqqətə çatdırıb. Bildirib ki, Misir şirkətləri də Azərbaycanın işğaldan azad olunmuş ərazilərinə investisiya qoymaq əzmindədirlər.

Söhbət zamanı tərəfləri maraqlandıran digər mövzularda da fikir mübadiləsi aparılıb.

# "Banklar daha çox rahat qazanc yollarına əl atırlar"

## Rüfət Quliyev: "Rəqabət Məcəlləsi süni formada qalxan qiymətlərin qarşısını almaq üçün təsirli mexanizm olacaq"

***Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü, deputat Rüfət Quliyev "Unikal"a müsahibə verib. Deputat bu ilin büdcəsinə ediləcək dəyişikliklərdən, bank kreditlərinin faizinin yüksək olmasından, dərmanların qiymətinin süni artırılmasından və digər məsələlərdən danışıb.***

***-Rüfət müəllim, Prezident İlham Əliyev 2022-ci ilin dövlət büdcəsinə əlavələr edilməsi ilə bağlı Hökumətə tapşırıq verib. 2022-ci ilin dövlət büdcəsinə yenidən baxılacaq. Sizcə, hansı sahələrə əlavə vəsait ayrıla bilər?***

-2022-ci ilin dövlət büdcəsində bir barel neftin qiyməti 50 dollar nəzərdə tutulub. Hazırda Azərbaycan neftinin qiyməti bahalaşıb. Əlavə gələn vəsait Dövlət Neft Fonduna yığılır. Əlavə vəsait olduqda prioritet istiqamət olan sosial sahəyə daha çox vəsait xərclənir. Digər tərəfdən, işğaldan azad olunmuş ərazilərdə böyük infrastruktur işləri görülür. Həmin yerlərdə evlər tikmək, iş yerləri yaratmaq lazımdır. Həmçinin, minaların təmizlənməsi ilə bağlı da işlər görülür. Bu, çox vəsait aparan prosesdir. Bu işlərin aparılması ilə yanaşı hələ də minaların partlamasından xeyli zərərçəkənlər var. Minaların tapılması, zərərsizləşdirilməsi üçün işlər davam etdirilir. Bu sahəyə də vəsait xərclənir. Əlavə vəsaitin ayrılması üçün əsas istiqamətlər sosial sahə və Qarabağda gedən işlərdir. İmkan olduqda, bu sahələrə daha çox maliyyə ayrılır. Bununla yanaşı, qeyri-neft sektorunun inkişafında da yeni mərhələ istəyirik. Bunun üçün kiçik və orta sahibkarlığın inkişafını daha da artırmaq lazımdır. Sahibkarlara verilən kreditlərin faizlərinin azaldılması gözlənilir. Hazırda dövlət əlçatan formada kiçik kreditlər verir. Bundan başqa, xarici borcu da artıra bilmərik, onu azaltmalıyıq. Qismən daxili borclanma daha çox olmalıdır, nəin ki, xaricdən borclanma. Ümumilikdə, büdcənin gəlir hissəsində artım olanda, əsas sahələrin hər biri nəzərə alınır.

***-Ölkədə Bank kreditlərinin faizinin yüksək olması ilə bağlı fikirlər səsləndirilir. İstehlak kreditlərinin faizlərinin aşağı salınması gözlənilirmi?***

-Çalışmalıyıq ki, kiçik və orta sahibkarlıq inkişaf eləsin, insanların qazancı artsın. Gəlir artdıqca, istehlak kreditlərinə olan ehtiyac da nisbətən azalır. Bu məsələ ilə bağlı bankları tənqid edirik ki, iş mexanizminizə dəyişikliklər etməlisiz. Belə ki, istehlak kreditlərindən qazancı azaldıb, daha çox digər bank xidmətlərindən gəlir əldə etməlidirlər. Tək istehlak kreditləri ilə bankların qazanmağı ağlabatan deyil. Bəzi banklar daha çox rahat qazanc yollarına əl atırlar. Bunlarla yanaşı, iqtisadiyyatımızın inkişaf tempini, ümumi daxili məhsulu (ÜDM), kənd təsərrüfatını və qida məhsullarının istehsalını, ixracı artırmalıyıq. İqtisadiyyatımız üçün əsas prioritetlər bunlardır. Bu işlər inkişaf etdikcə, istehlak kreditlərinə olan ehtiyac azalacaq. Ehtiyac azalan kimi, qiymətlər də aşağı düşəcək.



***-Qiymət artımları cəmiyyəti ən çox narahat edən məsələlərdən biridir. Bunun qarşısını almaq üçün hansı addımlar atılmalıdır?***

-Dünya nomenklaturasında 2 milyondan çox çeşid mallar və xidmətlər var. Bunlardan böyük bir qismi Azərbaycana idxal olunur. Xaricdə də inflyasiya gedir, bunun da səbəbləri var. Pandemiya vaxtı inkişaf etmiş ölkələr ifrat formada pulları emissiya edib insanlara payladılar. Guya, qapanma dövründə insanlara kömək edirdilər. Burada isə tələb-təklif qanunu pozulur. Pulun həcmi və inflyasiya artır. Bu baxımdan, ABŞ-da inflyasiya 8 faizi ötüb. Normada isə 1,5 faizi keçməli deyildi. Avropada isə inflyasiya 8 faizdən artıqdır. Bəzi Avropa ölkələrində isə 10 faizə çatıb. Həmin ölkələrdən Azərbaycana idxal olunan məhsulların qiyməti yüksək olur. Demək olar ki, 80-85 faiz inflyasiya Azərbaycana idxal olunur. Bunun da qarşısını almaq üçün bolluq yaratmaq lazımdır. Bu zaman tələb-təklif qanunu işləyəcək və qiymətlər aşağı düşəcək. Dövlət tərəfindən qiymət artımları ilə bağlı mübarizə aparılır, dəstək tədbirləri həyata keçirilir, qiymətlərə nəzarət olunur. Bu, 50 faiz problemləri həll edir, yerdə qalan hissəsi isə bolluqla bağlıdır. İstehlak bazarında məhsul bolluğu olduqca, rəqabət əsasında qiymətlər aşağı düşəcək.

***-Özünüz də rəqabət məsələsindən danışdınız. Artıq yeni hazırlanan Rəqabət Məcəlləsinin layihəsi Nazirlər Kabinetinə təqdim edilib. Məcəllənin qəbul olunması ilə nələr dəyişəcək?***

-Bütün dünyada olduğu kimi, Azərbaycanda da iş görənlərlə yanaşı işbazlar da var. Birincisi biznesmenlər, sahibkarlardır ki, zəhmətləri ilə iş görürlər, xidmət göstərib pul qazanırlar. Bir də işbazlar var. Onlar çalışırlar ki, süni şəkildə qiymətləri artırsınlar. Rəqabət Məcəlləsi süni formada qalxan qiymətlərin qarşısını almaq üçün təsirli mexanizm olacaq. Məcəllənin qəbulu ilə rəqabətə daha çox azadlıq veriləcək. İstəyimiz odur ki, iqtisadiyyatımızın artım templəri üstün olsun, inflyasiya proqnozlaşdırılan kimi 7-8 faizi ötməsin, insanların rifahına müsbət formada təsir etsin.

***-Siz də bir neçə dəfə dərmanların qiyməti ilə bağlı danışmısınız. Bu sahədə də süni qiymət artımlarına rast gəlinir. Bunun qarşısı necə alınmalıdır?***

-Dövlət büdcəsindən dərmanlarla bağlı kifayət qədər vəsait ayrılır və ilbeil bu vəsait artırılır. Bəzi xəstəliklərdən əziyyət çəkən vətəndaşlar dövlət tərəfindən pulsuz dərmanla təmin olunur. Bu işlə bağlı nəzarət var, amma onu artırmaq lazımdır. Həmçinin, dərmanların keyfiyyətinə və kəmiyyətinə nəzarət artırılmalıdır. Dərmanların qiymətini süni formada artırmaq və ya dərmanın kimyəvi tərkibini dəyişməklə maya dəyərini ucuzlaşdırıb artıq qazanc əldə etmək dələduzluqdur.

***-Parlamentdə deputat həmkarlarınızdan bir neçəsi pensiya yaşının azaldılması ilə bağlı məsələ qaldırıb. Necə düşünürsüz, pensiya yaşı neçə olmalıdır?***

-Biz dünyada gedən proseslərlə uyğunlaşırıq. Seçicilərimlə görüşüm olanda onlardan müəllim, həkim, mühəndis və ya tibb bacısı olanlar bildirirlər ki, pensiya yaşını artırın. Fiziki işlə məşğul olanlar isə qeyd edirlər ki, pensiya yaşı azaldılsın. Özüm 40 ilə yaxındır ali məktəbdə işləyirəm. Bu gün belə fikirlər səsləndirilir ki, 65 yaşdan yuxarı müəllimlər təqaüdə göndərilsin, onların yerinə gənclər gəlsin. Məsələn, 70 yaşlı professor mükəmməl formada tələbələrə dərs deyir. Buna tələb qoyulur ki, pensiya yaşına çatmısan, işdən çıxmalısan. Amma xaricdə 80-85 yaşında dərs deyən müəllimlər var. Bu yaşda alim, müəllim, həkim cəmiyyətə kifayət qədər xeyir verə bilər. Bunu nəzərə almaq lazımdır. Pensiya yaşının qadınlar üçün 63, kişilər üçün isə 65 yaş olması normaldır. Burada diqqət etmək lazımdır ki, şəxs hansı işlə məşğul olub. Bir tərəf deyir pensiya yaşı artırılsın, digər tərəf isə deyir ki, azaldılsın.

***-Hazırda dünyada və ölkəmizdə diqqətdə olan məsələlərdən biri də taxıl idxalı ilə bağlıdır. Taxıl ehtiyatlarımızın artırılması ilə bağlı hansı işlər görülür?***

-Azərbaycanın taxıl və əsas qida məhsulları ilə bağlı ehtiyatları kifayət qədərdir. O demək deyil ki, bu istiqamətdə işlər aparılmır. Hökumət bu məsələlərlə bağlı işlər aparır. Yeni ölkələrlə müqavilələr bağlanır. Bəzən görürsən, çörək qıtlığı yaranacaq və s. kimi fikirlər səsləndirilir. Bu məsələ ilə bağlı qorxunc xəbərlər vermək doğru deyil. Heç də belə olmayacaq. Ola bilər ki, qiymətdə müəyyən dəyişiklik olsun. Bu da subyektiv deyil, obyektivdir. Dünyada gedən proseslər istər-istəməz bizə də təsir edəcək. Taxılın 75-80 faizini ölkəmizdə əkib-yığa bilsək, tam sığortalanırıq. Bu istiqamətdə hökumət işlərini davam etdirir. Dövlət öz işini bilir, ola biləcək fəsadların qarşısını alır. Qismən problem ola bilər. Hansı ölkədə problem yoxdu ki? Pandemiya dövrünü nəzərə alsaq, son iki ildə də Azərbaycan iqtisadiyyatı uğurlu olub. Ümumi daxili məhsulun (ÜDM) artımı, qeyri-neft sektorunun gəlirləri proqnozlaşdırılandan da yüksəkdir.

***Anar Kəlbiyev***

# Alimpaşa Məmmədovdan sabiq nazirlə bağlı manevr

## Sabiq icra başçısı keçmiş nazirlə barışmağa çalışır

***Təxminən 20 gün öncə Səbail rayon Məhkəməsində Şəmkirin sabiq icra başçısı Alimpaşa Məmmədov barəsindəki həbs-qətimkan tədbirinin uzadılması ilə bağlı təqdimata baxıldı. Təqdimat təmin edildi və Alimpaşa Məmmədovun barəsində seçilmiş həbs müddəti daha 5 ay uzadıldı.***

Xatırladaq ki, Alimpaşa Məmmədov ötən ilin aprel ayında Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən kompleks əməliyyat-istintaq tədbirləri nəticəsində həbs olunub.

Sabiq icra başçısı Cinayət Məcəlləsinin 179.4 (mənimsəmə), 193-1.3.2 (cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərini leqallaşdırma), 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə), 311.3.2 və 311.3.3-cü (təkrar, külli miqdarda rüşvət alma) maddələri ilə cinayət məsuliyyətinə cəlb edilərək barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.



Bəzi iddialara görə, bir ildən çoxdur həbsdə olan A.Məmmədov ən azından ev dustaqlığına buraxılmaq üçün müəyyən cəhdlər edib, lakin bunlar alınmadıqda keçmiş himayədarı, sabiq Vergilər naziri Fazil Məmmədovla pozulmuş münasibətlərini bərpa eləmək qərarına gəlib. Bu da səbəbsiz deyil. Əli hər yerdən üzülən eks icra başçısı uzun müddət həbsdə qalmamaq üçün sabiq nazirin köməyinə bel bağlamağa başlayıb.

Məlum olduğu kimi, Alimpaşa Məmmədov keçmiş "vergi şefi"nin öz kadrı, yaxın adamlarından biri olub. F.Məmmədov nazir olarkən onu ən sadiq və etibarlı adamı kimi kurasiyasında olan Şəmkirə göndərib. Bu rayon və onun ətrafında Fazil Məmmədovun milyonlarla yatırım etdiyi müəssisələr, özəl mülklər, tərpənməz əmlakları var idi.

Lakin 2019-cu ildə media sabiq icra başçısının öz himayədarına qarşı çıxdığı barədə məlumatlar yaymağa başladı. Həmin məlumatlarda iddia edilirdi ki, Alimpaşa Məmmədov sabiq nazirə rayon ərazisində sahibkarlıq fəaliyyəti göstərməyi qeyri-rəsmi olaraq qadağan edib. Hətta bəzi KİV-lər bir qədər də irəli gedərək keçmiş başçının F.Məmmədova Şəmkirə ayaq basmamaq barədə ismarıc yolladığını yazırdı.

Belə iddialardan birində deyilirdi: " Fazil Məmmədovun yaxın adamlarından biri - qardaşının qaynı Turan Səidov bir vaxtlar sabiq nazirin rayondakı təmir-tikinti işlərini görürmüş. Onun "21-ci əsr" adlı şirkəti də var. Hazırda bu şirkətin fəaliyyəti iflicdi. Bildirilir ki, Şəmkirin icra başçısı özünün yaxın adamlarına yeni şirkətlər açıb, rayonla bağlı bütün təmir-tikinti işlərini yaxın çevrəsinin əli ilə gördürür. Alimpaşa Məmmədov isə Turanı yanına çağıraraq deyib ki, "bir daha ayağın Şəmkirə dəyməyəcək". Ardınca da elə Fazil Məmmədova ismarışını yollayıb: "Ona deyin, əziyyət çəkib ofis təmir etdirməsin, mən bu rayonda başçı olan müddətdə Fazil müəllim burda yaşaya, bizneslə məşğul ola bilməz". Deyilənə görə, başçının bu ismarışından sonra Fazil Məmmədov Şəmkiri tərk edib, Bakıya gəlib. Yaxınlarına deyib ki, o, Alimpaşayla üz-üzə gəlmək, konflikt yaratmaq istəmir".

Bu və bənzər iddialar həmin vaxt təsdiqlənməsə də, təkzib də edilməmişdi. Üstəlik, ən müxtəlif KİV-lərin bu barədə yazmasından aydınlaşırdı ki, iddialardan hansının doğru, hansının şişirtmə olmasından asılı olmayaraq bir şey dəqiqdir: sabiq nazirlə keçmiş icra başçısının arasından "qara pişik" keçib!

Kimi onların münasibətlərindəki soyuqlaşmanı maraq toqquşması, kimi də F.Məmmədovun tezliklə "vurulacağını" bilən A.Məmmədovun özünüqoruma tədbiri kimi qiymətləndirirdi. Yəni ehtimal olunurdu ki, sabiq "vergi şefi"nin vəzifəsindən kənarlaşdırılacağını öyrənən, yaxud təxmin edən sabiq icra başçısı onun güdazına getməmək üçün tədbirli davranmaq qərarına gəlib və...

Və bir zamanlar sayəsində yüksək vəzifəyə gəldiyi F.Məmmədovla körpüləri "yandırmağa" üstnülük verib!

Lakin A.Məmmədovun həmin gedişi effekt vermədi, o, sabiq nazirin "vurulmasından" sonra nəinki kreslosunu, hətta azadlığını itirdi.

İndi isə söz-söhbətlər bu yöndədir ki, A.Məmmədov uzun müddətli həbsdə qalmamaq üçün F.Məmmədovla yenidən yaxınlaşmağa, köhnə səhvlərinin bağışlanmasına çalışır. Bununla da keçmiş nazirin onu həbsdən çıxarmaq üçün imkanlarını işə salacağına ümid edir. Hərçənd bu, bihudə ümidə oxşayır. Çünki özü barəsində dilə gətirilən həbs ehtimalları hər nə qədər doğrulmasa və F.Məmmədov yalnız vəzifədən azad edilməklə canını qurtarsa da, nazir postundakı nüfuz dairəsindən, təsir imkanlarından çox-çox uzaqdır. O indi yalnız özünün və biznesinin hayındadır.

Üstəlik, sabiq nazir keçmiş icra başçısı ilə arasındakı konfliktdən sonra çətin ki, onu bağışlasın. Xüsusilə nəzərə alsaq ki, bu konfliktlə bağlı mediaya zaman-zaman kifayət qədər ağır xəbərlər sızıb. Həmin xəbərlərin bir çoxu dəqiqlik baxımından şübhəli görünsə də, yaxud şişirtmə təsiri bağışlasa belə, eks nazirin sözügedən informasiyaları A.Məmmədova yaxın dairələrdən məqsədli şəkildə KİV-ə ötürüldüyünü düşünməsi yetərincə ağlabatandır. Belədə hansı bağışlamadan söhbət gedə bilər?

*Toğrul Əliyev*

## "Erməni icması Türkiyənin ayrılmaz hissəsidir" - Çavuşoğlu



***Erməni icması Türkiyənin ayrılmaz hissəsidir.***

"Unikal" xəbər verir ki, bunu Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu "Twitter"də bildirib.

"Türkiyə ermənilərinin patriarxı Sahak Maşalyanla Erməni Apostol Kilsəsinin Vatikan nümayəndəsi Xacaq Barsamyanı qəbul etdik. Erməni icması ölkəmizin ayrılmaz hissəsidir. Biz erməni icmasının tanınmış nümayəndələri ilə dialoqumuzu və təmaslarımızı davam etdirəcəyik", - Çavuşoğlu qeyd edib.

## Zakir Həsənov pakistanlı generalla görüşdü

***Türkiyədə işgüzar səfərdə olan Azərbaycanln müdafiə naziri general-polkovnik Zakir Həsənov Pakistan İslam Respublikasının Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri general Nadim Raza ilə görüşüb.***

Bu barədə "Unikal"a Müdafiə Nazirliyindən məlumat verilib.

Səmimi görüşdə Azərbaycan ilə Pakistan arasında hərbi əməkdaşlıqdan məmnunluq ifadə olunub, gələcək perspektivlər müzakirə edilib.

## "Turizmin qarşısında ən böyük sədd "AZAL"dır" - Ekspert

***"Formula-" heç bir ölkəyə birbaşa qazanc gətirmir, amma iş doğru təşkil olunanda iqtisadiyyatda mutiplikativ effekt yaradır, ölkənin tanıtımı maddiləşir, turizm və investor axını artır ki, bu da biznesin qazanmasına, daha çox qazandıqca ödədiyi verginin həcminin artmasına səbəb olur. Ölkələr məhz belə pul qazanırlar.***

"Unikal" xəbər verir ki, bunu iqtisadçı ekspert Natiq Cəfərli deyib. O bildirib ki, bizdə əhalinin bu yarışa neqativ münasibəti tək şəhərin iflic olmasına, yolların bağlı, saatlarla tıxacların yaranmasına görə deyil, həm də ona görədir ki, bu yarış zamanı və yarışdan sonra yaranmalı olan tanıtıma görə pul qazanmırlar:

"Formula-" çox populyar yarışdı, dünyada 500 milyon nəfərə yaxın azarkeşi var, deməli ölkələr üçün tanınmağın artmasına yaxşı şərait yaranır. Doğru siyasətlə bu tanıtım maddiləşməlidir. Turizm artır, hər turist bizim kimi ölkələrdə ortalama həftəyə ən azı 500 dollar pul xərcləyirlər, bu vəsait biznesə gəlir kimi daxil olur, biznesin də vergi öhdəliyi artır, bununla da büdcə də qazanır. Bizdə turizmin qarşısında ən böyük sədd "AZAL"dır. Belə yüksək bilet qiymətləri turizmin qənimidir. Ona görə "Formula-1"in effektini görmürük".

## Toy kortejində avtoxuliqanlıq edənlər həbs olundu

***İyunun 7-də saat 16 radələrində Binəqədi rayonu ərazisində toy kortejində avtoxuliqanlıq edən "VAZ-21214" və "VAZ-2106" markalı iki avtomobil Baş Dövlət Yol Polisi İdarəsinin əməkdaşları tərəfindən saxlanılıb.***

DİN-dən "Unikal"a verilən məlumata görə, polis əməkdaşları tərəfindən həmin avtomobillərin sürücüləri - İmişli rayon sakini M.Miradiyev və Abşeron rayon sakini E.Eyvazov barəsində İnzibati Xətalar Məcəlləsinin 511-ci maddəsi ilə protokol tərtib olunub.

Məhkəmənin qərarı ilə onlar 1 il müddətinə nəqliyyat vasitəsini idarə etmək hüququ məhdudlaşdırılmaqla 1 ay müddətinə inzibati qaydada həbs edilib.

Bu istiqamətdə tədbirlər davam etdirilir.



# Azərbaycan generalları Ərdoğanla birgə hərbi təlimdə

***İyunun 9-da Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov "Efes-2022" çoxmillətli təliminin sonuncu günündə icra olunan tapşırıqları izləyib.***

Müdafiə Nazirliyindən "Unikal"a verilən məlumata görə, yüksək səviyyəli qonaqlar qismində təlimi izləmək üçün Türkiyə Respublikasının Prezidenti cənab Rəcəb Tayyib Ərdoğan poliqona gəlib.

Təlim iştirakçıları snayper atışları, mühüm əhəmiyyətə malik hədəfin ələ keçirilməsi, eləcə də dəniz piyadalarının sahil obyektinə basqın tapşırıqlarını yerinə yetiriblər.

Əlahiddə Ümumqoşun Ordudan və Hərbi Dəniz Qüvvələrindən bir qrup hərbi qulluqçumuzun da cəlb edildiyi beynəlxalq təlimdə iştirakçılar yüksək peşəkarlıq nümayiş etdiriblər.

# Rəşad Nəbiyev bu tarixdə vətəndaşları qəbul edəcək

***Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev 16 iyun 2022-ci il tarixində saat 10:00-da Yevlax şəhərində yerləşən Heydər Əliyev Mərkəzində (ünvan: Yevlax şəhəri, Nizami prospekti 61) Yevlax, Bərdə, Tərtər, Goranboy rayonları və Mingəçevir şəhərinin sakinlərini qəbul edəcək.***

"Unikal" xəbər verir ki, qəbul mərkəzi icra hakimiyyəti orqanları və digər idarəetmə qurumlarının rəhbərlərinin şəhər və rayonlarda iyun ayı üzrə vətəndaşları qəbulu cədvəlinə əsasən həyata keçiriləcək.

Nazir bu bölgələrdə göstərilən nəqliyyat, telekommunikasiya, o cümlədən internet, teleradio yayımı və poçt xidmətləri sahəsində əhalini maraqlandıran məsələlərlə bağlı vətəndaşları dinləyəcək.

Qəbula yazılmaq üçün 15 iyun 2022-ci il tarixinə qədər Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Çağrı Mərkəzi (1655), elektron poçtu (mincom@mincom.gov.az) və 012 598 58 58 (daxili 222 və 290) nömrəli telefon vasitəsilə müraciət etmək mümkündür.

# Əmək müqaviləsinə xitam verilməsinə dair yeni qaydalar

***Əmək müqaviləsinə xitam verilməsinə dair yeni qaydalar müəyyənləşib.***

"Unikal" xəbər verir ki, bu barədə Prezident İlham Əliyevin imzaladığı Əmək Məcəlləsinə dəyişikliklər haqqında qanunda əksini tapıb.

Aşağıdakı hallar fiziki şəxs olan işəgötürənlə bağlanmış əmək müqaviləsinə işçinin əmək qanunvericiliyinə əməl olunmasına dövlət nəzarətini həyata keçirən orqana müraciəti əsasında xitam verilmiş hesab edilməsi üçün əsas olacaq:

- fiziki şəxs olan işəgötürən vəfat etdikdə, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı əsasında xəbərsiz itkin düşmüş və ya ölmüş elan edildikdə;
- fiziki şəxs olan işəgötürən barəsində məhkəmə tərəfindən həbs qətimkan tədbiri seçildikdə, yaxud o, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə azadlıqdan məhrum edildikdə;
- fiziki şəxs olan işəgötürən məhkəmənin qanuni qüvvəyə minmiş qərarı əsasında fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli şəxs hesab edildikdə;
- Mülki Prosessual və Cinayət Prosessual məcəllələrinə uyğun olaraq fiziki şəxs olan işəgötürənin axtarışı elan olunduqda;
- İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq əcnəbi və vətəndaşlığı olmayan işəgötürən barəsində Azərbaycan Respublikasının hüdudlarından kənarda inzibati qaydada çıxarma tətbiq edildikdə.

Bu hallarda əmək müqaviləsinə xitam verilmiş hesab edilməsi əmək münasibətlərinin iştirakçılarını, habelə vəfat etmiş fiziki şəxs olan işəgötürənin vərəsələrini (miras payı həddində) əmək qanunvericiliyi ilə müəyyən edilmiş öhdəliklərin icrasından azad etməyəcək.

# Mədəniyyət Nazirliyində Əblüfəs Qarayev nəfəsi...

## Anar Kərimovun menyüsuna: Bu qurumda daha ciddi "təmizləmələrə", islahatlara ehtiyac var!

***Bu günlərdə Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasının gecə klubuna çevrilməsi ilə bağlı ard-arda görüntülər yayıldı. Həmin görüntülərdə yarıçılpaq qızların "twerk" oynaması Filarmoniyanın ərazisində yerləşən "UFFO" restoranının fəaliyyətinin dayandırmamasından xəbər verir.***

Azərbaycanın mədəniyyət ocaqlarından birinin belə bir vəziyyətdə olması isə ictimaiyyət tərəfindən böyük təəssüf hissi və hiddətlə qarşılandı.Məsələ ətrafında müzakirələr alovlandıqdan sonra nəhayət ki, Mədəniyyət Nazirliyindən səs çıxdı - qurum Filarmoniya bağındakı restoranın fəaliyyəti ilə bağlı açıqlama yaydı. Bildirildi ki, restoranda çəkilmiş videolar bir müddət öncə lentə alınıb və məlum hadisədən sonra müqaviləyə xitam verilərək həmin məkanın fəaliyyəti dayandırılıb, enerji təchizatı kəsilib: "Filarmoniyanın rəhbərliyi tərəfindən həmin ərazidə asayişin qorunması məqsədilə hüquq mühafizə orqanlarına müraciət edilib və bununla bağlı lazımi tədbirlər görülüb. Bildiririk ki, hazırda heç bir fəaliyyətdən söhbət belə gedə bilməz".



Lakin görüntülərin heç də uzaq olmayan keçmişdə çəkildiyi, sözügedən restoranın uzun müddətdir oxşar fəaliyyət göstərdiyi və yalnız bu məsələ ictimailəşməyə başladıqdan sonra ona müdaxilə edildiyi barədə fikirlər də yetərincədir. Elə bəzi görüntülər də həmin fikirlərin həqiqətəuyğunluğundan xəbər verir.

Biz Azərbaycanda bənzər hallarla Əbülfəs Qarayevin Mədəniyyət naziri olduğu dönəmlərdə tez-tez rastlaşırdıq. Tarixi binaları belə əyləncə məkanlarına çevrənlər tapılır, yalnız bu barədə geniş ictimaiyyət xəbər tutduqdan, narazılıqlar artdıqdan sonra nazirlik işə qarışırdı. Bir çox hallarda hətta buna belə ehtiyac görülmür, tarixi memarlıq əhəmiyyətli tikililər müvafiq siyahılardan çıxarılır, 100-150 yaşı olan, özünəməxsus arxitekturaya malik binalar kimlərinsə biznes maraqlarına qurban edilirdi.

Təəssüf ki, Mədəniyyət Nazirliyində bəzi kadrların hələ də eyni hamam, eyni tas prinsipi ilə işlədiyi aydın görünür. Bakının düz mərkəzində, Filarmoniya bağı kimi bir yerdə gecə klubu açılıb, uzun müddət fəaliyyət göstərib, lakin nə Filarmoniya rəhbərliyi, nə də Mədəniyyət Nazirliyi rəsmiləri məsələ ictimailəşənədək bundan agah olublar, eləmi? Doğrudanmı, nazirlikdə kimlərsə düşünür ki, cəmiyyət buna inana bilər?!...

Və yaxud, bir müddət əvvəl məlumat yayıldı ki, Mədəniyyət Nazirliyi mədəniyyət müəssisələrinin 2021-ci ildə cari və əsaslı təmiri üzrə iki, struktur qurumlarına 2021-ci ildə maşın və avadanlıqların satın alınması üzrə isə bir tenderin qalibini elan edib. Beləliklə, təmirlə bağlı üst-üstə cəmi 3 milyon manatlıq tenderləri "VEST-LTD" QSC, maşın və avadanlıqların alınması üzrə təxminən 1.3 milyon manatlıq tenderi isə "Stone Construction" MMC qazanıb.Maraqlıdır ki, hər iki şirkət artıq bir neçə ildir ki, nazirliyin keçirdiyi tenderlərin daimi qalibləri sırasındadır. Mətbuatda bu şirkətlərlə bağlı müxtəlif səpkili məlumatlara rast gəlinir.

Məsələn, "VEST-LTD" QSC-nin təkcə 2020-ci ildə 22(!) böyük tenderin qalibi olduğu qeyd edilir. Bu, bir aya iki tender deməkdir. Ən azı fiziki cəhətdən bu işləri yerinə yetirmək fantastik görünür və bu səbəbdən mətbuat səhifələrində sözügedən şirkətin müxtəlif maxinasiyaları barədə iddialar yer alır.

Bundan başqa, qeyd olunur ki, həmin 22 tenderlə bağlı satınalmaları həyata keçirən orqanlar əsasən icra hakimiyyətləri və Mədəniyyət Nazirliyinin qurumları olub. Həmçinin, şirkət Dövlət Turizm Agentliyinin 3.3 milyon manatlıq tenderini də qazanıb.Bunu niyə xatırladırıq? Məlumdur ki, Əbülfəs Qarayevin nazir vəzifəsindən azad edilməsinin və Mədəniyyət Nazirliyinin bir neçə yüksək vəzifəli şəxsinin həbsi səbəblərindən biri də nazirlik tərəfindən dövlət satınalmaları və tenderlərdə yol verilmiş saxtakarlıq və korrupsiya faktları idi. Həmin vaxt vəzifəli şəxslərlə birgə, nazirlik rəsmiləri ilə "əməkdaşlığa" gedən şirkət rəhbərləri də diqqət mərkəzinə gəlmişdilər. İndi isə görünən odur ki, adıçəkilən nazirliyin rəhbərliyində ciddi dəyişikliklər baş versə də, qurumun əməkdaşlıq etdiyi şirkətlər demək olar ki, dəyişməyib.Belə çıxır ki, Mədəniyyət Nazirliyində "Əbülfəs Qarayevin nəfəsi" hələ də hiss edilir - bir çoxları əvvəlki iş prinsipləri ilə çalışırlar. Ona görə də hazırkı nazir Anar Kərimovun nazirlik daxilində kadr təmizləmələri aparmasına ciddi ehtiyac var. Mədəniyyət Nazirliyində islahatlar dərinləşməyəcəyi təqdirdə müəyyən müddətdən sonra bu qurum ən azı Qarayevin zamanında olduğu qədər sərt, aramsız tənqidlərin, iradların, şikayətlərin ünvanına çevriləcək. Özü də haqlı olaraq!...

***Sənan Mirzə***

# Vilyam Hacıyevin "miras məzhəkəsi"...

## Sabiq icra başçısı niyə milyonlarla manatın ona qayınatasından yox, həyat yoldaşının babasından qaldığını söylədi?

***Son günlərin ən çox müzakirə olunan mövzularından biri İmişli Rayon İcra Hakimiyyətinin (RİH) həbsdə olan sabiq başçısı Vilyam Hacıyevin sözləri oldu.***

Bakı Ağır Cinayətlər Məhkəməsində keçirilən növbəti məhkəmə iclasında Vilyam müəllim növbəti absurdlara imza atdı. Öncə barəsində irəli sürülən ittihamların əsassız olduğunu dedi, ardınca da dövlətə dəyən maddi ziyanı ailəmə məxsus əmlaklarla ödəməyə hazır olduğunu söylədi.

Absurddur, çünki barəsində-ki ittihamlar əsassızdırsa, Vilyam müəllim daha niyə dövlətə dəyən maddi ziyanı, üstəlik, ailə üzvlərinə məxsus əmlakla ödəyir ki? Bir də axı elə həmin Vilyam müəllimdir ki, bir zamanlar demirdimi bir həsirdir, bir Məmmədnəsir, hətta o qədər kasıbdır vur-tut 124 manata kirayə qalır? Əgər ailə üzvlərinin o vaxt da əmlakları var idisə, daha bu "kirayə ev" komediyası nə üçün idi? Gözdən pərdə asmaqdan ötrümü?!



Absurdun pik həddi isə məhkəmənin gedişində dövlət ittihamçısı V.Hacıyevə suallar verərkən ortaya çıxıb. O deyib ki, təqsirləndirilən şəxsə məxsus mənzilə və xidməti otağına baxış zamanı 2 504 057 ABŞ dolları və 1 006 470 avro, 365 ingilis funt sterlinq, 60 İsveçrə frankı, 455 türk lirəsi (ümumilikdə 6 298 834 manat) vəsait müsadirə edilib. Bu qədər pulun qaynağı soruşularkən eks icra başçısı söyləyib ki, həmin vəsaitlərin hamısı həyat yoldaşının babasından miras qalmış pullar idi.

Qeyd edək ki, 2020-ci ilin mayın 5-də məhkəmənin qərarı əsasında Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən xidməti və yaşadığı ünvanlarda əməliyyat-istintaq tədbirləri həyata keçirildikdən sonra həbs olunan V.Hacıyev elə ilk günlərdən cəmiyyətdə gülüş doğuran fikirlər səsləndirirdi.

O, barəsində həbs qətimkan tədbiri seçildikdən sonra məhkəmə qarşısında yaxınlarına xitabla "Hər şey yaxşı olacaq. Bu günlər keçəcək. Haqq yerini tapacaqg" demişdi. Bu sözlər bir çoxlarında sabiq icra başçısının kimlərə və yaxud nələrəsə arxayın olduğu barədə təəssurat yaratmışdı. Lakin həmin sözləri doğru olaraq ironiya ilə qarşılayanlar da tapıldı. Əvvəla, V.Hacıyev "Haqq yerini tapacaq..." deyərkən, belə görünür, əslində haqqın yerini tapdığından xəbərsiz idi. Uzun illər korrupsiya, rüşvətxorluq kimi qanunsuz əməllərlə məşğul olan, sahibkarları incidən, vətəndaşların şikayətlərini dinləməyən, onların istəklərini eşitməyən bir məmur sonda cəzalandırılırsa, haqq yerini başqa necə tapmalı idi ki?!

İkincisi, V.Hacıyev, ola bilsin, həqiqətən də uzun müddət həbsdə qalmayacağını düşünür, kimlərinsə dəstəyinə arxalanır və onların sayəsində həbsdən qurtulacağına inanırmış. Lakin proseslərin sonrakı gedişi onun həmin ümidinin üzərindən qalın bir xətt çəkmiş oldu. Bunda təəccüblü heç nə yoxdur. Ölkə başçısı son çıxışlarında dəfələrlə vurğulayıb ki, hansısa məmur kimlərəsə arxayın olub, arxalanıb özünü toxunulmaz hesab edirsə yanılır. Dövlət rəhbəri korrupsiyaya bulaşmış heç bir məmurun toxunulmaz olmadığını da dönə-dönə bəyan edib.

Həmçinin cəmiyyət də korrupsioner, rüşvətxor məmurların sərt şəkildə cəzalandırılmasının tərəfdarıdır və bu səbəbdən də onların həbsini təqdirlə qarşılayır.

Belədə sabiq icra başçısının arxayın şəkildə "Hər şey yaxşı olacaq. Bu günlər keçəcək. Haqq yerini tapacaqg" sözlərini gülüşlə qarşılamayasan, neyləyəsən?!

İndi isə Vilyam müəllim növbəti "gül" vurur və büdcədən oğurladığı milyonlarla manatı həyat yoldaşının babasından qalan miras adlandırır.

Adamdan soruşarlar: doğrudan da, bu mirasdırsa, onda sabiq başçı həmin milyonların kiçik bir hissəsi ilə özünə niyə ev almaq istəməyib ki, 124 manatlıq kirayəyə sığınıb?

Həmin milyonları bank hesablarında saxlamağa nə olub ki, iş yerində, kirayə mənzilində saxlayıb? Üstəlik, kirayə evi başa düşdük, nə vaxtdan adamlar özlərinin o qədər pulunu məhz xidməti kabinetlərində saxlayırlar?

Və ən ilginc sual: niyə Vilyam müəllim milyonlarla manatın ona həyat yoldaşının atasından yox, babasından qaldığını söyləyib? Bunun da cavabı var: görünür, qayınatası Sovet hakimiyyəti illərində yaşadığı üçün sabiq başçı "baba varinatına" üstünlük verib. Öz aləmində fikirləşib ki, cəmiyyət sovet zamanı kimsənin bu qədər pula yiyələnməsinin mümkün olmadığını deyəcək, bu səbəbdən də sözlərinə inanan olmayacaq. Odur ki, həyat yoldaşının babasını nişan verib - belədə, camaat düşünəcək ki, mərhum bolşevik inqilabına qədər özünə bəs deyincə sərvət yığıb, sovet vaxtı da həmin sərvət gizlədilib, lap axırda, müstəqillik dövründə isə nəvəsinə qismət olub.

Hər halda Vilyam müəllimin qayınata yox, məhz baba mirası söyləməsinin arxasında başqa məntiq axtarmaq olmur.

Gülməli olan isə icra başçılığına qədər yüksəlmiş bir adamın bu cəfəngiyyata həm məhkəmənin, həm də xalqın inanmasını gözləməsidir. Guya camaat çörəyi qulağına yeyir!

Oyununuz olsun, Vilyam müəllim, adamın lap qarnını tutub qəşş eləməyi gəlir...

Qəşş eləmək demişkən, yaxşısı budur, yazımıza qədim yunan filosoflarından birinin sözləri ilə nöqtə qoyaq: "Ən yaxşı əyləncə özünü hədsiz ağıllı göstərənlərdir, çünki heç kim onlar qədər gülməli görünmürlər".

Bilmirəm, nə demək istədiyim aydın oldumu?!

***Toğrul Əliyev***

# Nazir onu baş rejissor təyin etdi



***Gəncə Dövlət Dram Teatrına yeni baş rejissor təyin edilib.***

"Unikal" xəbər verir ki, Azərbaycan mədəniyyət naziri Anar Kərimovun müvafiq əmri ilə Əhmədov Elşad Eldar oğlu teatra baş rejissor təyin olunub.

# Şuşaya səfər adı ilə 500-ə yaxın alim aldadıldı




***Bir qrup alimə Şuşaya səfər təşkil etmək adı altında dələduzluq edilib.***

"Unikal" xəbər verir ki, bu barədə tarixçi alim Arif Gürşadoğlu özünün sosial şəbəkə hesabında məlumat yayıb.

O bildirib ki, Əlvan Cəfərov adlı şəxs Şuşada konfrans keçiriləcəyi vədi ilə qeydiyyatdan keçmiş 470 nəfər alimi aldadıb:

"Konfransa qatılanların az olduğunu bilərək belə bir çirkin oyun qurulub. Bəlkə də Əlvan Cəfərovluq deyil, ancaq istənilən halda bu, çirkin oyundur. Sabah yola çıxacağımız ərəfədə bəlli olub ki, cəmi 100 nəfər seçilmiş alim bu gün Şuşaya gediblər. Kim seçib, necə seçib, bu, başqa sualdır. Və bu sualların da cavabı aydınlaşacaq. Gedənlərin içində bir ailədən 4 nəfər, hətta alim olmayanlar da var. İndi də yazıb ki, heç kim ödənişini geri istəməsin! Hər adamdan 70 manat almaq və onu qaytarmamaq bu qədər asandırmı?".

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən bildirib ki, həmin faktla bağlı hazırda Yasamal rayon Polis İdarəsində araşdırma aparılır, zərərçəkənlərin idarəyə müraciət etməsi xahiş edilir.

# Azərbaycana qarşı döyüşən muzdlu Ali Məhkəməyə şikayət etdi



***Azərbaycanın torpaqları işğalda olan vaxt Ermənistan tərəfindən Qarabağda qanunsuz silahlı birləşmələrin tərkibinə cəlb olunmuş, erməni hərbi birləşmələrinin tərkibində Azərbaycana qarşı döyüşməkdə təqsirləndirilrək həbs edilən erməni əsilli Rusiya vətəndaşı Eduard Dubakov Bakı Apellyasiya Məhkəməsinin qərarından Ali Məhkəməyə kassasiya şikayəti verib.***

"Unikal"ın məlumatına görə, şikayət hakim İlkin Rəcəbovun icratına verilib. İş üzrə məhkəmənin ilkin iclası iyunun 16-na təyin edilib.

İttihama görə, Eduard Dubakov Azərbaycanın işğalda olan torpaqlarına qanunsuz səfər edərək Kəlbəcər rayonu ərazisində hərbi təlimlərdə iştirak edib.

O ötən il yanvarın 14-də terror-təxribat törətmək məqsədilə Türkiyədən Bakıya gəlib. Keçirilən əməliyyat nəticəsində E. Dubakov saxlanılıb.

Dubakov Eduard Sergeyeviç barəsində Azərbaycan Cinayət Məcəlləsinin 214-3.1 (terrorçuluq, terrorçuluğu maliyyələşdirmə), 218.2-ci (Cinayətkar birlikdə (təşkilatda), habelə mütəşəkkil dəstələrin təşkilatçılarının, rəhbərlərinin və ya sair nümayəndələrinin birliyində iştirak etmə), 318.2-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) maddələri ilə cinayət işi başlanıb.

Bakı Ağır Cinayətlər Məhkəmkəsinin hökmü ilə E. Dubakov 10 il azadlıqdan məhrum edilib.

Bakı Apellyasiya Məhkəməsi qərarı qüvvədə saxlayıb.

## Hərbçilərimiz Türkiyədə yüksək peşəkarlıq nümayiş etdiriblər



***İyunun 9-da Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənov "Efes-2022" çoxmillətli təliminin sonuncu günündə icra olunan tapşırıqları izləyib.***

Müdafiə Nazirliyindən "Unikal"a verilən məlumata görə, yüksək səviyyəli qonaqlar qismində təlimi izləmək üçün Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan poliqona gəlib.

Təlim iştirakçıları snayper atışları, mühüm əhəmiyyətə malik hədəfin ələ keçirilməsi, eləcə də dəniz piyadalarının sahil obyektinə basqın tapşırıqlarını yerinə yetiriblər.

Əlahiddə Ümumqoşun Ordudan və Hərbi Dəniz Qüvvələrindən bir qrup hərbi qulluqçumuzun da cəlb edildiyi beynəlxalq təlimdə iştirakçılar yüksək peşəkarlıq nümayiş etdiriblər.

## "Nostalji" restoranında nöqsanlar aşkarlandı



***Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (AQTA) qida təhlükəsizliyinin təmin edilməsi, istehlakçı hüquqlarının müdafiəsi sahəsində tədbirləri davam etdirir.***

AQTA-dan "Unikal"a verilən məlumata görə, Agentlik əməkdaşları tərəfindən Gəncə şəhəri, Nizami küçəsi, ev 70 ünvanında fəaliyyət göstərən, fiziki şəxs Məmmədova Fidan Çingiz qızına məxsus "Nostalji" restoranında həyata keçirilmiş planlı yoxlama zamanı mal qonşuluğu prinsipinin, sanitariya norma və qaydalarının, gigiyena normativlərinin pozulduğu aşkar edilib. Belə ki, soyuducu kameralarda qida xammalı və yarımfabrikatların hazır yeməklərlə birgə saxlanıldığı, sanitar qovşağına girişin birbaşa emal və istehsal prosesləri gedən sahələrdən olduğu, mətbəxdə məişət tullantıları üçün hermetik zibil qablarının quraşdırılmadığı, eyni zamanda işçi heyətin ilkin və dövrü olaraq tibbi müayinədən keçmədiyi və gigiyena qaydalarına əməl etmədən fəaliyyət göstərdiyi müəyyən olunub. Faktla bağlı sahibkar barəsində inizibati protokol tərtib edilib, pozuntuların aradan qaldırılması və müəssisənin qida təhlükəsizliyi sahəsində normativ hüquqi aktların tələblərinə uyğunlaşdırılması barədə icrası məcburi göstərişlər verilib. Araşdırmalar davam edir.

AQTA əhalinin sağlamlığının qorunması və təhlükəsiz qida məhsulları ilə təmin edilməsi üçün ardıcıl tədbirlərini davam etdirir və istehlakçı hüquqlarının pozulmasına yönəlmiş qanunsuz halların qarşısının alınması istiqamətində müvafiq addımlar atır.

## Bakıda yağış yağacaq

***İyunun 10-na gözlənilən hava şəraiti açıqlanıb.***

Milli Hidrometeorologiya Xidmətindən "Unikal"a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraiti dəyişkən buludlu, əsasən yağmursuz keçəcək. Lakin gecə və səhər bəzi yerlərdə qısamüddətli az yağış yağacağı ehtimalı var. Şimal-qərb küləyi arabir güclənəcək.

Havanın temperaturu gecə 19-21° isti, gündüz 25-28° isti, Bakıda gecə 19-21° isti, gündüz 26-28° isti olacaq. Atmosfer təzyiqi 756 mm civə sütunundan 761 mm civə sütununa yüksələcək. Nisbi rütubət 50-60 % olacaq.

Azərbaycanın rayonlarında bəzi yerlərdə şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir.

Qərb küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 17-21° isti, gündüz 29-34° isti, dağlarda gecə 8-13° isti, gündüz 18-23° isti olacaq.

# Sumqayıt çimərliyindən istifadə qadağan edildi

***Sumqayıt şəhər çimərliyinin çimərlik kimi istifadəsinin müvəqqəti olaraq qadağan edilməsi barədə qərar qəbul olunub.***

Səhiyyə Nazirliyindən "Unikal"a verilən məlumata görə, yay mövsümünə hazırlıqla əlaqədar Respublika Gigiyena və Epidemiologiya Mərkəzi Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Xəzər Kompleks Ekoloji Monitorinq İdarəsi ilə birlikdə Bakı və Sumqayıt şəhərləri ərazisində yerləşən çimərliklərin sanitariya vəziyyətinin müayinəsi və dəniz suyunun keyfiyyət göstəricilərinin laboratoriya tədqiqat üsullarının tətbiqi ilə monitorinq keçirib.

Müayinələrin nəticələrinə görə Mərdəkan, Şüvəlan, Novxanı, Buzovna, Zaqulba, Nardaran çimərliklərində dəniz suyunun fiziki-kimyəvi, bakterioloji göstəricilərinin norma səviyyəsində olduğu aşkarlanıb.



Aparılmış monitorinqlər zamanı Səbail rayonunun Şıx, Qaradağ rayonunun Sahil çimərliklərinin sanitariya-mühafizə zonalarına dənizin tullantı çirkab suları ilə intensiv çirklənmə hallarının hələ də davam etdiyi müəyyən edilib. Nəticədə qeyd olunan çimərliklərin suyunda mikrobioloji çirklənmə göstəriciləri normadan çox olub.

Həmçinin, aparılmış monitorinqlər zamanı Suraxanı rayonu Hövsan, Xəzər rayonunun Türkan çimərliklərinin sanitariya-mühafizə zonalarına buraxılan tullantı çirkab suları ilə çirkləndirilməsi səbəbindən dəniz suyunun mikrobioloji çirklənmə göstəricilərinin mövcud normativlərin tələblərinə cavab vermədiyi müəyyən edilib.

Aparılmış laborator müayinə nəticələrinə əsasən, Pirşağı çimərliyinin suyunun mikrobioloji çirklənmə göstəriciləri də sanitariya norma və qaydalarının tələblərinə cavab verməyib.

Sumqayıt şəhər çimərliyində aparılmış monitorinq zamanı laboratoriya müayinəsinə götürülmüş dəniz suyu nümunələrində mikrobioloji çirklənmə göstəricisi olan bağırsaq çöpləri qrupu bakteriyaların sayı normadan çox olub.

Bu il ərzində çimərlik mövsümündə mövcud vəziyyətin əhalinin sağlamlığı üçün ciddi təhlükə törətdiyini, əhali arasında yoluxucu xəstəliklərin baş verməsi və yayılması təhlükəsini nəzərə alaraq, "Sanitariya-Epidemioloji Salamatlıq haqqında" Azərbaycan Respublikası Qanununa istinadən, Səbail rayonun Şıx, Qaradağ rayonun Sahil, Suraxanı rayonun Hövsan, Xəzər rayonun Türkan, Sabunçu rayonun Pirşağı çimərliklərinin və göstərilən ərazilərdə qeyri-qanuni çimərlik sahələrinin çimərlik kimi istifadəsinin müvəqqəti olaraq qadağan edilməsi barədə Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin müvafiq olaraq qərarları qüvvədə saxlanılıb, həmçinin Sumqayıt şəhər çimərliyinin çimərlik kimi istifadəsinin müvəqqəti olaraq qadağan edilməsi barədə qərar qəbul olunub.

# Uşağın saçının yolunmasına görə 2 nəfər cəzalandırılıb

***Şamaxıda uşağa qarşı zorakılığa görə bağça müdiri və aşpaz cəzalandırılıb.***

"Unikal" xəbər verir ki, bu barədə Dağlıq Şirvan Regional Təhsil idarəsinin yaydığı məlumatda qeyd olunub.

Bildirilib ki, Şamaxı şəhər 3 saylı bağçasında tərbiyəçinin uşağın saçının dartılması ilə bağlı sosial mediada yayılan görüntüyə əsasən İdarə müvafiq araşdırma aparıb:

"Araşdırma zamanı bağça müdirinin, tərbiyəçinin, aşpazın və uşaq Gülarə Əsədovanın (ad və soyad şərti verilir) valideyninin izahatları alınıb. İzahatlardan müəyyən edilib ki, çəkiliş bağçada uşaqlardan birinin ad gününün qeyd edilməsi zamanı baş verib. Tədbir zamanı aşpaz tortu otağa gətirib və bu zaman torta yaxınlaşan uşağın saçından arxaya doğru çəkib. Bağça müdiri aşpazın izahatını alıb və ona sonuncu xəbərdarlıqla şiddətli töhmət elan edilib. Aşpaz hadisənin istəmədən baş verməsini bildirib və buna görə üzr istəyib. G.Əsədovanın valideyni izahatında heç kimdən, o cümlədən aşpazdan da şikayəti olmadığını bildirib. Bağçanın müdirinə əmək funksiyasını yerinə yetirərkən yol verdiyi nöqsanlara görə xəbərdarlıq edilib".




# İstehlaka yararsız qida məhsulları məhv edildi

***İstehlaka yararsız qida məhsulları məhv edilib. Bu barədə "Unikal"a Qida Təhlükəsizliyi Agentliyindən (AQTA) məlumat verilib.***

Bildirilib ki, "AzerTürk-XXI.TTC.SAN" MMC-nin ümumi çəkisi 1087 kq "Tat" əmtəə nişanlı manna yarması məhsuluna qida təhlükəsizliyi sertifikatının alınması ilə bağlı AQTA müraciəti əsasında, idxal olunmuş məhsullardan götürülmüş nümunələrin Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun müvafiq laboratoriyasında aparılmış ekspertizası nəticəsində bağırsaq çöpü qrupu bakteriyalarının miqdarının normadan artıq olduğu müəyyən olunub.



Faktla bağlı Agentlik tərəfindən 20.03.2022-20.09.2023-ci il tarixli, 0322 nömrəli məhsul partiyasının zərərsizləşdirilməsi, məhv edilməsi, geri qaytarılması və ya utilizasiyası barədə qərar qəbul edilərək "Təhlükəli Tullantılar" MMC-yə məxsus tullantıların zərərsizləşdirilməsi poliqonunda məhv edilib.

AQTA əhalinin sağlamlığının qorunması və təhlükəsiz qida məhsulları ilə təmin edilməsi üçün ardıcıl tədbirlərini davam etdirir və istehlakçı hüquqlarının pozulmasına yönəlmiş qanunsuz halların qarşısının alınması istiqamətində müvafiq addımlar atır.

## 6.3.4. ictimai və dövlət maraqlarının müdafiəsi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# İctima maraqlarla dövlət maraqları vəhdət təşkil etməlidir

### Gülşən Hacıyeva: "İdeal cəmiyyət qurmaq istəyiriksə, dövlətin mənafeyinə zərər gəlmədən ictimai maraqların təmin edilməsi, ortaq maraqların müəyyənləşdirilməsi dövlətçilik təfəkkürünə malik insanların əsas amalına çevrilməlidir"



***Ölkəmizdə ictimai və milli maraqların təmin olunması əsas prioritet məsələdir. Həm dövlətin mənafeyini, həmçinin də ictimai maraqların qorunduğu cəmiyyətlərdə ortaq maraqlar formalaşdırmaq mümkündür. Bəs necə etmək olar ki, dövlət və cəmiyyət üçün həssas məqamlarda bu qızıl ortanı qorumaq mümkün olsun?***

Suala cavab tapmazdan öncə qeyd edək ki, dövlət və ictimai maraqların qorunması ilə bağlı belə bir həssas məsələ bu günlərdə yaşandı. 44 günlük müharibədə bizə Zəfər bəxş edən qazilərimiz Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi qarşısında aksiya keçirtdilər. Kiçik insidentlə yadda qalan bu hadisə hətta düşmən mediasında belə işıqlandırıldı. Bunun əsas səbəblərindən biri qazilərlə bağlı məsələni işıqlandırmaqda dövlət maraqlarının nəzərə alınmaması idisə, digər səbəb sosial şəbəkə üzərindən bu məlumatı hər kəsin öz qəbul etdiyi kimi paylaşması idi. 44 günlük Vətən müharibəsində ictimai və dövlət maraqlarının üst-üstə düşməsi Azərbaycanı möhtəşəm zəfərə doğru apardı. Vətən müharibəsi Azərbaycan cəmiyyətində həm də milli birliyin, vahid düşüncənin, vətən, xalq və dövlət anlayışının uğurlu vəhdətinə çevrildi. Amma ölkəmizi istəməyən qüvvələrin tarixi qalibiyyətimizə kölgə salmaq üçün bu cür sosial məsələlərdən həssaslıqla öz xeyirlərinə faydalanmaq fürsəti gözlədikləri danılmazdır. Bəs necə edək ki, düşmənin, Azərbaycanı istəməyən qüvvələrin əlinə bu cür fürsət verməyək?

Azərbaycan Yüksəliş Partiyası Başqanının müavini Gülşən Hacıyeva "Unikal"a açıqlamasında bildirib ki, mətbuat istənilən məsələni işıqlandırarkən hər şeydən öncə obyektivlik prinsipinə əməl etməli, tərəflərin fikirlərinə, münasibətlərinə yer verməlidir. Onun sözlərinə görə, bu, hansısa istək və ya arzu deyil, qaydadır, vəzifədir, qanunla təsbit olunmuş məsuliyyətdir: "Konkret qazilərin və ya şəhid ailələrinin problemləri kimi həssas məsələyə gəlincə, burada da obyektivlik, tərəfsizlik əsas götürülməlidir. Təbii ki, qazilərin tələblərini, qaldırdıqları məsələni gündəmə gətirərkən, ittiham olunan, cavabdehlik daşıyan tərəfin də münasibəti öyrənilməlidir. Bir vətəndaş kimi bu məsələyə rəy bildirərkən isə öncə durumu analiz etməliyik. Əlimizə "qılınc" alıb, hansısa tərəfə hücum çəkməzdən əvvəl vəziyyəti bu həddə çatdıran səbəblər üzərində düşünməliyik. Bəli, 44 günlük Vətən savaşında zəfəri bizə canından keçən şəhidlər, ölümü gözə alıb, döyüşə atılan, yaralanan, dostlarını, silahdaşlarını itirən qazilərimiz yaşatdı. Bu amili nəzərə almaq, onların durumunun həssaslığını anlamaq vacibdir. Necə olur ki, canlarını fəda etməyə hazır olan 10-15 min nəfər qazinin problemi 2 ilə yaxındır, həll olunmur. Burada təbii ki, ən böyük məsuliyyət cavabdeh qurum və şəxslərin üzərinə düşür. Məhz onların yarıtmaz fəaliyyəti, laqeyd, etinasız münasibətləri nəticəsində belə xoş olmayan mənzərələr ortaya çıxır. Aidiyyəti qurum və məmurun qazini qapı sındıracaq həddə çatdırması yolverilməzdir".

Həmsöhbətimiz deyir ki, vətəndaşları, xüsusilə qaziləri dövlətə qarşı qoymaq cinayətdir: "Təəssüf ki, dövlət qurumlarında işləyən, yüksək vəzifələr tutan insanların əksəriyyəti bunu anlamaq potensialına sahib deyil. Burada ayrı-ayrı fərdlərin günahlandırılması da çıxış yolu deyil, problem idarəetmə sistemindədir. Əgər o vəzifələrə milli, təəssübkeş və təşəbbüskar insanlar gətirilsə, həlli çətin olmayan məsələlər bu qədər qabarmaz, xaos yaranmaz. Yəni bu məsələlərə fikir bildirərkən, bu amilləri nəzərə almaq, tərəfləri daha da qıcıqlandırmaq yerinə, çözümlər göstərmək lazımdır".

G. Hacıyeva deyir ki, ictimai və dövlət maraqlarının müdafiəsi sözün bütün mənalarında həyati əhəmiyyət kəsb etdiyindən, bu məsələ cəmiyyət həyatının bütün iştirakçıları üçün öz aktuallığını daim qoruyur. Məhz bu baxımdan hər bir cəmiyyətin başlıca məqsədlərindən biri kimi ictimai və dövlət maraqlarının müdafiəsi ölkəmizdə əsas vəzifələrdən biri hesab olunur: "Azərbaycan cəmiyyəti yetkin bir cəmiyyətdir o mənada ki, ictimai maraq və dövlət marağı məfhumlarının mahiyyətini tam dərk edir. Bununla yetinmir, eləcə də bu mövqeyi ictimai, siyasi münasibətlərdə və dövlətlə əlaqələrində nümayiş etdirməyi bacarır. İdeal cəmiyyət qurmaq istəyiriksə, dövlətin mənafeyinə zərər gəlmədən ictimai maraqların təmin edilməsi, ortaq maraqların müəyyənləşdirilməsi dövlətçilik təfəkkürünə malik insanların, fərq etməz, fərdi, siyasi, qeyri-siyasi təsisatların əsas amalına çevrilməli və belə amal sahibləri ölkəsinə hər mənada əməlləri ilə xeyir verməlidir".

Qeyd edək ki, ictimai və dövlət maraqlarının müdafiəsi sistemində ictimai maraqların müdafiəsi xüsusilə diqqət mərkəzində olmalıdır. Yəni ictimai maraqlar yetərincə müdafiə edilirsə və dövlət maraqları da onunla üst-üstə düşürsə, deməli, ictimai maraqların müdafiəsi elə həm də dövlət maraqlarının müdafiəsi rolunda çıxış edəcək. Yox, əgər dövlət maraqları ictimai maraqlarla uzlaşmırsa, belə dövlət maraqlarının qorunması məqsədəuyğun deyil. Bu baxımdan ictimai rəy əsasında idarə edilən cəmiyyətlərdə bəzən heç ictimai maraqların qorunması üçün belə ciddi cəhdlərə ehtiyac qalmır. Amma vətəndaş cəmiyyətinin nəzarəti bu kateqoriyalar üzərində daima mövcud olmalıdır.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**



# Nazirdən "Son zəng"lə bağlı ƏMR

***Ümumi təhsil müəssisələrində "Son zəng" tədbiri iyunun 14-də keçiriləcək.***

"Unikal" xəbər verir ki, bununla bağlı təhsil naziri Emin Əmrullayev müvafiq əmr imzalayıb.

Əmrə əsasən, "Son zəng" tədbiri hər bir ümumi təhsil müəssisəsinin həyətyanı sahəsində, həyətyanı sahəsi olmayan ümumi təhsil müəssisələrinin idman və ya akt zallarında təşkil olunacaq.

"Son zəng" tədbirində valideyn komitələri, valideyn-müəllim assosiasiyaları və ictimaiyyətin nümayəndələri iştirak edə bilər. "Son zəng" müddətində şagirdlərin təhlükəsizliyinin təmin olunması istiqamətində zəruri tədbirlər görüləcək.

# DGKA-da növbəti ISO standartı üzrə audit keçirildi

***Dövlət Gömrük Komitəsinin Akademiyasında ISO 10002 "Müştəri Məmnuniyyəti İdarəetmə Sistemi" standartı üzrə sertifikatlaşdırma auditi keçirilib.***



"Unikal" xəbər verir ki, akademiyanın struktur bölmələrində təşkil edilən audit Türk Standartları İnstitutunun (TSE) Azərbaycan nümayəndəliyinin rəhbəri Arzu Gülhan Yüzereroğlu tərəfindən aparılıb.

Auditdən əvvəl Akademiya rəhbərliyinin, əməkdaşlarının və ISO İşçi qrupunun iştirakı ilə qonaqla görüş keçirilib. Görüşdə daha öncə təşkil edilmiş "Müştəri Məmnuniyyəti İdarəetmə Sistemi" təlimindən sonra Akademiyada ISO 10002 standartının tətbiqi ilə bağlı görülən işlər haqqında ümumi məlumat verilib və gün ərzində Akademiyanın struktur bölmələrində davam edəcək auditin əsas mərhələləri müzakirə edilib.

ISO 10002 "Müştəri məmnuniyyəti idarəetmə sistemi" standartı üzrə keçirilən sertifikatlaşdırma auditi zamanı Arzu Gülhan Yüzereroğlu müvafiq standart üzrə sənədləri və iş prosesini incələyib, struktur bölmələrin iş prosesi ilə yaxından tanış olub və konkret sahələr üzrə təkmilləşdirilmənin daha da yüksək səviyyədə həyata keçirilməsi üçün bir sıra təkliflər irəli sürüb.

Sonda auditlə bağlı yekun iclas keçirilib. İclasda Arzu Gülhan Yüzereroğlu çıxış edərək Akademiyada ISO 10002 "Müştəri Məmnuniyyəti İdarəetmə Sistemi" standartı ilə bağlı görülmüş işləri yüksək qiymətləndirib, müəyyən məsələlərlə bağlı təkliflərini bölüşüb, auditin tam şəkildə keçirilməsi üçün yaradılan şəraitə görə öz adından və TSE adından Akademiya rəhbərliyinə təşəkkür edib. Akademiyanın rəhbərliyi və əməkdaşlar müxtəlif istiqamətlər, o cümlədən müştəri məmnuniyyəti üzrə xidmət standartlarının yüksəldilməsi istiqamətində dəstəyinə görə Arzu Gülhan Yüzereroğluna və TSE-yə təşəkkür edib, əməkdaşlıqdan məmnun olduqlarını bildiriblər.

Qeyd edək ki, Dövlət Gömrük Komitəsinin Akademiyası daha öncə TSE tərəfindən keçirilən təlimlər və Akademiyanın bütün strukturlarında aparılan auditlər nəticəsində "Keyfiyyəti İdarəetmə Sistemi" standartı üzrə TS EN ISO 9001:2015, "Peşə sağlamlığı və əməyin təhlükəsizliyi" standartı üzrə isə TS EN ISO 45001:2018 beynəlxalq sertifikatlarına layiq görülüb.

# Kəlbəcərdən Laçına yüksəkgərginlikli elektrik xətti çəkilir



***Laçın rayonunun Azərbaycanın ümumi enerji sisteminə qoşulması, dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təchiz edilməsi üçün "AzərEnerji" tərəfindən genişmiqyaslı işlər həyata keçirilir.***

"AzərEnerji"dən "Unikal"a verilən məlumata görə, 2021-ci ildə istismara verilən "Kəlbəcər" yarımstansiyasından Laçın rayonunun Qorçu kəndinə 42 km məsafədə ikidövrəli olmaqla 110 kilovoltluq yüksəkgərginlikli ötürmə xətti çəkilir.

Bəzi yerlərdə 2200 metr yüksəklikdən, dağlıq, sıldırım qayalıq, çaylaq, sıx meşəlik və ən əsası yolsuzluq şəraitində çəkilən ötürmə xəttinin trassası üzrə xüsusi buzlaşma əraziləri də nəzərə alınmaqla hər birinin çəkisi orta hesabla 10 ton, hündürlüyü 40 metr olan 250-yə qədər anker və aralıq dayaq basdırılır.

Ağır tonnajlı dayaqların daşınması üçün xəttin trassası üzrə yol salınmaqla yanaşı bütün maneələr dəf edilir. 110 kilovoltluq xəttin üzərindəki ildırım ötürücü trosun içərisində 24 damarlı fiber optik kabellə internet xətti çəkilir. Paralel olaraq Laçın rayonunun Qorçu kəndində dəniz səviyyəsindən 1800 metr yüksəklikdə 110/35/10 kilovoltluq rəqəmsal yarımstansiya tikilir.

Laçında yeni tikilən rəqəmsal yarımstansiyada 110 kilovoltluq açıq, 35 və 10 kilovoltluq qapalı paylayıcı qurğular yaradılacaq. Sistem əhəmiyyətli "Qorçu" yarımstansiyası məsafədən idarəolunan SCADA Dispetçer İdarəetmə sisteminə qoşulacaq və bunun üçün tikilməkdə olan idarəetmə binasında mikro-SCADA sistemi yaradılacaq. Yeni yarımstansiya Laçında tikiləcək Hava limanı, rayon ərazisindəki hərbi hissələri, gələcəkdə Laçında tikiləcək bütün infrastrukturu elektrik enerjisi ilə təchiz edəcək.

# Azərbaycan dili fənni üzrə növbəti imtahan keçiriləcək



***Dövlət İmtahan Mərkəzi tərəfindən iyunun 12-də hər hansı səbəbdən buraxılış imtahanı çərçivəsində ümumi (9 illik) və tam (11 illik) orta təhsil səviyyəsi üzrə 2022-ci il mayın 8-də keçirilən Azərbaycan dili imtahanında iştirak etməyən cari ilin məzunları və ali və ya orta ixtisas təhsil müəssisələrinə qəbul olmaq üçün sənəd verən, lakin mayın 8-də keçirilən imtahanda iştirak edib "qeyri-məqbul" qiymət alan cari və əvvəlki illərin abituriyentləri üçün Azərbaycan dili fənni üzrə test imtahanı (ikinci cəhd) keçiriləcək.***

DİM-dən "Unikal"a verilən məlumata görə, imtahan Bakı şəhərində 5 binada aparılacaq.

İmtahan bütün binalarda eyni vaxtda - saat 11:00-da başlanır. İmtahanın başlanmasına 15 dəqiqə qalmış saat 10:45-də buraxılış rejimi başa çatır. Bundan sonra gələn iştirakçılar imtahan binasına buraxılmır. İmtahan binasına buraxılış vərəqəsində qeyd olunan vaxtda gəlmək lazımdır.

Cari ilin 9-cu və 11-ci sinif şagirdləri buradan, ali və orta ixtisas təhsili müəssisələrinə sənəd verən cari və əvvəlki illərin abituriyentləri isə buradan "İmtahana buraxılış vərəqəsi"ni çap edə bilərlər.

İmtahanda iştirakçılara 30 tapşırıq təqdim olunur:

- dinləyib-anlamaya dair 1 mətn və mətnə aid 4 tapşırıq (3 qapalı və yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli 1 tapşırıq);
- dil qaydaları üzrə bilik və bacarıqların yoxlanması üçün 10 qapalı tipli tapşırıq;
- oxuyub anlamaya dair 2 mətn və hər mətnə aid 8 tapşırıq (7 qapalı və yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli 1 tapşırıq).

İmtahanın müddəti 1 saat 30 dəqiqədir.

İmtahanın idarə olunması üçün 5 ümumi imtahan rəhbəri, 14 imtahan rəhbəri, 104 nəzarətçi-müəllim ayrılıb, 11 buraxılış rejimi əməkdaşı (mühafizə), 5 bina nümayəndəsi ayrılıb.

# Xarab dişlər hansı xəstəliklərə səbəb ola bilər?

***Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti stomatoloq İlqar Qacarov nazirliyin sosial şəbəkələrdəki hesablarına diş əti xəstəlikləri ilə bağlı gələn suallar cavablandırıb.***

"Unikal" həkimin cavablarını təqdim edir:

- İlqar müəllim, vətəndaşlar arasında ən çox yayılan diş əti xəstəlikləri hansılardır?

- Diş əti xəstəlikləri diş ətinin və dişi əhatə edən toxumaların iltihabıdır. Diş ətinin iltihabı gingivit adlanır. Xəstəliyin tipik əlaməti dişətinin rənginin tünd-qırmızımtıl olması, dişətinin həcmcə böyük olması və dişətinin qanamasıdır.



Ağız gigiyenasına düzgün və müntəzəm qulluq edilmədikdə dişlərin səthində yığılan bakteriyaların diş əti altına keçərək diş ətini iltihablaşmasına səbəb olur.

Diş əti xəstəliyinin ilkin mərhələsində yumşaq diş fırçası ilə dişləri ehtiyyatla fırçalamaq, diş saplarından istifadə etmək lazımdır. Xəstəlik əgər müalicə edilməzsə, dişətinin altında və üstündə diş daşları əmələ gəlir.

- Ortodontik problemlər daha çox hansı yaşlarda yaranır?

- Ortodontik problemlər dedikdə diş-çənə anomaliyaları nəzərdə tutulur və əsasən 9-12 yaşlarda, süd dişlərinin daimi dişlərlə əvəz olunması zamanı yaranmağa başlayır. Problemin yaranma səbəbi əsasən süd dişlərin vaxtından əvvəl itirilməsidir.

Bəzən isə irsi faktorlar, zərərli vərdişlər (körpə vaxtı barmaq əmmə vərdişi, qələm dişləmə, dırnaq yemə, əmzikdən uzunmüddətli istifadə etmək), ağız tənəffüsü (ağız tənəffüsü vəziyyəti olduqda zaman keçdikcə çənə sümükləri düzgün inkişaf etmir və dişlərdə ortodontik problemlər yaranır), dar çənə (inkişaf müddətində çənə dar quruluşda olduğu üçün dişlər üst-üstə çıxır) də ortodontik problemlər yaradanlar səbəblər arasındadır.

Müalicəni erkən yaşlarda aparılması daha vacibdir. Dişlər və çənə sümüyü inkişafda olduğu üçün bu yaşda müalicə ilə tez nəticə əldə etmək mümkündür.

Unutmayaq ki, müalicədən öncə diqqət yetirilməli məqamlar var. Belə ki, ortodontik müalicəyə başlamazdan əvvəl mütləq dişlərin təmizliyinə fikir verilməli, diş daşları mütləq təmizlənməli, kariyeslər varsa, müalicə olunmalıdır.

Bundan əlavə, ortodontik müalicədə breketlərdən, plastinkalardan, ağız xarici aparatlardan, kappalardan istifadə olunur. Müalicə müraciət edənin yaşından, ağız təmizliyindən, problemin ağırlığından asılı olaraq 6 ay ilə 3 il arasında davam edə bilər.

- Xarab dişlər insanda hansı xəstəliklərin yaranmasına səbəb ola bilər?

- Kariyes bakteriyaların dişlərin sümük toxumasını zədələməsi nəticəsində əmələ gəlir. Bu xəstəliyin profilaktikası üçün bir sıra qaydalara əməl etmək lazımdı:

- Ağız boşluğunun təmizliyinə diqqət etmək (dişləri ən az 2 dəfə səhər və axşam yeməkdən sonra diş fırçası ilə təmizləmək lazımdır).

- Şokolad, karbohidrat tərkibli məhsullar, şirniyyatları daha az qəbul etmək.

- Ağız boşluğunu antiseptik tərkibli məhlullarla tez-tez qarqara etmək.

- Müntəzəm stomatoloq müayinəsindən keçmək önəmlidir.

Kariyes çox təhlükəli xəstəlikdir. O təkcə dişlərin vaxtından tez itirilməsinə səbəb olmur. Ağız-udlağ, daxili orqanlar və periodontun iltihabı, osteomielit (çənə sümüyünün iltihabına) kimi xəstəliklər kariyes sayəsində yaranır. Bunun üçün kariyesli dişləri vaxtında müalicə etmək lazımdır.

- Hansı halda stomatoloji cərrahiyyə həyata keçirilməlidir?

- Diş və ağız boşluğunda bir sıra stomatoloji cərrahiyyələr həyata keçirilir. Bunlar adətən aşağıda qeyd olunanlardır:

- Retension dişlər: bu dişlər diş əti altında qalır və digər dişlərə təzyiq göstərir;

- Ağıl dişlər: 17-25 yaş arasında çıxmağa başlayır. Dişlər düzgün sıralamada çıxmırsa yeni, çənə sümüyünə bitişik və ya əyri formada çıxarsa, bu dişlər cərrahi əməliyyatla çıxarılmalıdır;

- Kista və abseslərin müalicəsi zamanı cərrahi prosedur həyata keçirilir;

- Sümük auqmentasiyası.

- Orqanizmdəki hansı problemlər dişlərin vaxtından tez tökülməsinə səbəb olur?

- Ağız və dişlərin gigiyenasına diqqət etmədiyimiz halda ağız boşluğundakı problemlər başqa xəstəliklərin əmələ gəlməsi üçün zəmin yaradır. Belə ki, osteoporoz xəstəliyi zamanı sümüklər kövrək olur. Bu zaman çənə sümüyü də kövrəkləşir və dişlərin itirilməsinə gətirib çıxarır.

Bunan əlavə, şəkərli diabet xəstəliyindən əziyyət çəkən insanlarda qanda şəkərin miqdarının artması diş əti xəstəliklərinin əmələ gəlməsi riskini artırır. Qanda şəkərin miqdarını mütləq normada saxlamaq lazımdır.

Dişlərin möhkəm olması və kariyeslə mübarizə üçün dişləri hər gün 2 dəfə hərəsi təxminən 2 dəqiqə olmaqla fırçalamaq məsləhət görülür. Gizli kariyeslərin erkən aşkarlanması üçün hər 6 aydan bir stomatoloq müayinəsindən keçmək məsləhətdir.

# Yuxarı Qarabağ kanalında işlər davam edir

***11 rayona xidmət edən ölkənin ən böyük magistral suvarma kanalı olan Yuxarı Qarabağ kanalında işlər sürətlə davam edir.***

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin mətbuat katibi Dilqəm Şərifov bildirib ki, Respublikanın ən böyük magistral suvarma kanalı olan Yuxarı Qarabağ kanalında işlər sürətlə davam edir. Öz mənbəyini Mingeçevir Su Anbarından öz axımı ilə götürən kanal ölkənin 6 rayonunun ərazisindən keçməklə 11 rayona xidmət edir. Kanalın uzunluğu 172,4 km-dir. Kanal üzərində 19 ədəd hidrotexniki qurğu, 32 ədəd körpü, 12 ədəd səviyyə qaldıran qurğu, o cümlədən 45 ədəd paylayıcı qurğu, digər sifon və borulardan ibarət paylayıcı qurğular yerləşir. 2022-ci ilin yaz-yay suvarma mövsümünə hazırlıqla bağlı kanalda cari və əsaslı təmir işləri aparılır. Su itkisinə qarşı mübarizə tədbirləri çərçivəsində kanalın alçaq, ensiz yerlərinə torpaq daşınıb tökülür. Kanalın daxili yamaclığında lildən təmizlənmə işləri görülür. Bütün bu işlər Yuxarı Qarabağ Kanalı İstismarı İdarəsi tərəfindən həyata keçirilir.

Bu il su ehtiyatı əvvəlki illərə nisbətdə daha yaxşıdır. Çünki, Mingeçevir su anbarında suyun səviyyəsi ötən illə müqayisədə 2 metrdən artıq təşkil edir. Önəmli əhəmiyyətə malik olan yuxarı portal baş qurğusundan rayonların suvarma suyu limitə və tələbata uyğun olaraq tam ödənilir. Eyni zamanda Araz çayına saniyədə 25 kub metr su verilir ki, bu da Araz çayı ətrafında yerləşən Saatlı, Sabirabad, İmişli, Biləsuvar və Cəlilabad rayonlarının ərazilərində su çatışmazlığını aradan qaldırır.

Hazırda mövsümlə əlaqədar olaraq Yuxarı Qarabağ kanalında işlər sürətlə davam edir. Kanalın daxili yamaclığında olan kol-kos daimi olaraq təmizlənir, daxildə olan lil qatı texnikalar vasitəsi ilə kanaldan xaric olunur. Kanalın keçdiyi rayonların ərazilərinə Yuxarı Qarabağ Kanalı İstismarı İdarəsinin texnikaları cəlb olunub.

Kürdəmirdə əkin sahələrinin suvarılması davam edir, suvarma kanalları lildən təmizlənir. Dilqəm Şərifov bildirib ki, Kürdəmir rayonunda suvarılmanın mütəşəkkil aparılması və su istifadəçilərini suvarma suyu ilə tam təmin etmək üçün Kürdəmir Suvarma Sistemləri idarəsi tərəfindən meliorativ tədbirlər uğurla davam edir. Bu məqsədlə 2022-ci ildə xidməti ərazidə olan rayonun 58 kənd və 3 qəsəbəsinin 69526 hektar suvarılan ərazisindəki kənd təsərrüfatı əkinlərinin və həyətyanı sahələrinin suvarılması nəzərdə tutulub və suvarma hazırda davam edir. Rayonda suvarma öz axını və mexaniki üsulla aparılır. Əkin sahələrinin vaxtında suvarılması üçün hazırda suvarma kanallarında lildən təmizləmə işləri davam edir. İdarənin balansında olan kanallar bir-neçə istiqamətdə lildən təmizlənir.



Hazırda Kürdəmir rayonu əkin sahələrinin suvarılmasında qızğın dövrünü yaşayır. Fermerlər əkdikləri məhsulun bəhrəsini görmək üçün aqrotexniki qulluqla yanaşı vaxtlı vaxtında suvarmanı da aparmalıdır.

Kürdəmir Suvarma Sistemləri İdarəsinin xidməti ərazisində 14 ədəd Sudan İstifadəedənlər birlikləri fəaliyyət göstərirki, bu da bütün suvarılan sahələri əhatə edir. 2022-ci il üçün ayrı-ayrı Sudan İstifadəedənlər birlikləri üzrə suvarma planları və suvarılan sahələrin planları tərtib olunub. Bu il suvarma mövsümünün mütəşəkkil keçirilməsi üçün suvarma kanallarının mexanizimlərlə lildən təmizlənməsi qrafiki tərtib olunaraq kanallar üzərində yerləşən hidrotexniki qurğuların cari təmiri üzrə təqvim planı hazırlanıb. İdarə tərəfindən bu il də torpaq məcralı kanalların beton üzlüyə alınması nəzərdə tutulur. Beton üzlüklü kanallar isə su itkisini minimuma endirir.

Qeyd edək ki, cari ildə Kürdəmir Suvarma Sistemləri İdarəsinin xidməti ərazisində 44 min hektardan artıq taxıl, 2330 hektar pambıq, 4677 hektar bostan-tərəvəz və 8900 hektar yem bitkiləri əkilib. Bundan başqa 2620 hektar bağ və üzümlük, 6925 hektar isə həyətyanı sahələrdir.

Ağcabədidə 10 ədəd subartezian quyusu qazılır. Dilqəm Şərifov bildirib ki, Ağcabədi Suvarma Sistemləri İdarəsi rayon ərazisində ümumilikdə 63000 ha əkin sahəsinə xidmət edir. Hər il olduğu kimi bu il də idarə tərəfindən meliorativ tədbirlər uğurla davam etdirilir. Cari ildə 12000 hektardan artıq pambıq sahəsində, 19000 hektardan çox taxıl sahəsində və 6322 ha digər kənd təsərrüfat bitkiləri əkilən sahədə və 25630 ha yonca sahəsində suvarma işləri aparılıb. İdarənin balansında olan nasoslarla 13000 ha, öz axımı ilə 23290 ha, 26710 ha əkin sahəsi isə artezianlarla suvarılıb. Ağcabədi rayonunda bu il 10 ədəd subartezian quyusunun qazılması nəzərdə tutulub ki, artıq bu işlərin də böyük bir hissəsi arxada qalıb. Bununla da əhalinin suvarma və içməli suya olan tələbatı ödənilib.

Ağcabədi Suvarma Sistemləri İdarəsinin əsas fəaliyyəti idarənin balansında olan 2261 km suvarma kanalı, 2549 km kollektor drenaj şəbəkəsi, 4445 ədəd hidrotexniki qurğu, 53 ədəd elektrik nasos stansiyası, 1026 ədəd subartezian quyusu, 8 ədəd SNP markalı səyyar nasoslar, 2 ədəd üzən nasosların istismarı və təmirini təmin etməkdən ibarətdir. Bundan başqa idarənin balansında olan nasos stansiyalarda da cari təmir işləri aparılıb. Belə ki, Salmanbəyli-9 nasos stansiyasında bir ədəd elektrik mühərriki və Xocavənd-1 nasos stansiyasında bir ədəd elektrik mühərriki təmir olunub.

Qeyd edək ki, bu ilin əvvəlindən Ağcabədi Suvarma Sistemləri İdarəsi tərəfindən 470 min.m3 suvarma kanalı və 401 min.m3 kollektor drenaj şəbəkələri lildən təmizlənib. 103 ədəd subartezian quyuları cari təmir olunub. Görülən işlər nəticəsində su itkisinin qarşısı alınıb, torpaqların münbitliyi artıb.

***Hüseyn İsgəndərov***



# Qısa, şərəfli ömür yolu

***Yardımlı rayonunun Zevin kəndində boya-başa çatan Tərlan Gölişad oğlu Eyniyev üçün ən böyük sevgi millət, yurd, Vətən sevgisi idi. Məhz elə buna görə də İkinci Qarabağ müharibəsində canını qurban verməklə 30 il yağıya əsir düşmüş torpağı vətən etməklə onu bir daha milyonların gözündə müqəddəsləşdirdi. Və bu ilahi sevginin gücü qəhrəman Tərlanı ömrünün 27-ci ilində ürəkdən bağlandığı Vətən səmasının əbədi parlaq Günəşinə döndərdi..***

Ürəyində mənfur erməni dığalarına qarşı kin, nifrət Tərlan müstəqil həyata qədəm qoyur. Nəcib, gözəl əməlləri hesabına el -obada sevilən yeniyetməni 2010-cu ildə ordu sıralarına çağırırlar. Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarında doğma Azərbaycanına ləyaqətlə xidmət edir, hər an onun yolunda canından keçməyə hazır olur. Əsgərlər, zabitlər Tərlanın təmiz ürəyinə, qeyrətinə heyran kəsilirlər. Fəqət, yağı düşməndən qisas almaq üçün məqam axtaran Vətən sevdalısı əsgərlik həyatını başa vurduqdan sonra könüllü olaraq Daxili Qoşunların Xüsusi Təyinatlı Dəstəsində çavuş rütbəsində hərbi xidməti davam edir və əzəli, əbədi yurd yerimiz Qarabağ torpaqların azad olunmasında son nəfəsə qədər düşmənlə vuruşmağa and içir.

Qəlbində Vətəninə ilahi bir məhəbbət yaşadan Tərlan cəsurluğu, igidliyi ilə həmişə komandirlərin diqqət mərkəzində olur. Heç bir nöqsana yol vermir, daimi nümunəvi xidməti onu başqalarından fərqləndirir, hərbi tapşırıqlarını yerinə yetirən zaman əla döyüşçü keyfiyyətlərini göstərməklə özünə hörmət qazanır. Həm də bütün bunlara görə o, dəfələrlə özündən yuxarı vəzifəli komandirləri tərəfindən təşəkkürnamələr alır.

Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının çavuşu olan Tərlan Vətən müharibəsində Cəbrayılın azadlığı uğrunda gedən haqq savaşımızda döyüşə atılır. İlk gündən mərdliklə vuruşur, düşmənin çoxlu sayda canlı qüvvəsini, texnikasını sıradan çıxardır. Yağıya qan qusdurmaqla neçə-neçə ağır, qeyri-bərabər döyüşlərdən qalib çıxır. Düşdüyü odun-alovun içində həmişə cəsurluq, qəhrəmanlıq nümayiş etdirən Tərlan Eyniyev strateji əhəmiyyətli yüksəklik uğrunda gedən döyüşlərdə düşmənin snayperinə tuş gəlir. Oktyabrın 5-də Vətən eşqi ilə döyünən ürəyi dayanır. Qorxmaz döyüşçü canından artıq sevdiyi Azərbaycan torpaqlarının bölünməzliyi yolunda canını qurban verməklə əbədi bir ömür qazanır.

Tərlanın qısa, şərəfli ömür yolu öz xalqı üçün örnəkdir. Torpağı qanı ilə Vətən edən Yardımlının qartal balası ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medallarına layiq görülübdür.

***Zəfər Orucoğlu,***
***Azərbaycan Jurnalistlər Birliyini üzvü***

# Rusiyada "Volkswagen" işçiləri işdən çıxarılır?

***"Volkswagen" avtomobil konserni Rusiyanın Nijni-Novqoroddakı bölməsinin əməkdaşlarına iyun ayı ərzində 5-6 nəfərə maaş ödəməklə əmək müqavilələrini könüllü olaraq ləğv etməyi təklif edib.***

"Unikal" xəbər verir ki, bu barədə "Kommersant" məlumat yayıb. Söhbət GAZ qrupu əsasında "Volkswagen" və "Skoda"nın müqavilə montajının 200 əməkdaşından gedir. Sayt martın 3-dən fəaliyyətsizdir və ABŞ-ın GAZ-a tətbiq etdiyi cari sanksiyalar səbəbindən istehsalın bərpa olunacağı ehtimalı yoxdur.

"Volkswagen Group Rus"un məlumatına görə, iyunun 17-dək müqaviləni ləğv edən işçilər altı, iyunun 29-dək isə yalnız beş nəfər maaş ala bilərlər. Onlara həmçinin 2022-ci ilin sonuna qədər tibbi sığorta və şəxsi İT avadanlıqları təklif olunacaq.

# NATO-nun baş katibi xəstəliyə tutuldu

***NATO-nun baş katibi Yens Stoltenberq şingles xəstəliyinə tutulub.***

"Unikal" xəbər verir ki, bu səbəbdən o, Almaniya və Rumıniyaya səfərlərini təxirə salıb.

Bir müddətdir evdən işlədiyi bildirilən Stoltenberq planlaşdırılan proqramlara telekonfransla qatılacaq.

NATO rəsmisinin sözlərinə görə, baş katibə şingles diaqnozu qoyulub.

# Ermənistanda Baş Qərargah rəisi vəzifəsi ləğv edildi

***Ermənistan Müdafiə Nazirliyində bir sıra struktur dəyişikliyi həyata keçirilib.***

"Unikal" erməni KİV-lərinə istinadən xəbər verir ki, Ermənistan hökumətinin iyunun 9-da keçirilən iclasında qəbul etdiyi qərara əsasən, Baş nazir, Müdafiə Nazirliyinin, Silahlı Qüvvələrin Baş Qərargahının, eləcə də Ermənistanın müdafiə nazirinin və Silahlı Qüvvələrin Baş Qərargah rəisinin səlahiyyətləri dəqiqləşdirilib.

İclasda həmçinin Ermənistan Respublikası Baş Qərargah rəisi vəzifəsi dəyişdirilərək müdafiə nazirinin birinci müavini olmasına qərar verilib.

*Ağarza Elçinoğlu*

# "ABŞ Qarabağa texnika göndərməyə hazırdır" - Səfir

***"Azərbaycan ərazilərinin minalarla çirkləndirilməsi məsələsi ciddi problemdir".***

"Unikal" xəbər verir ki, bu sözləri ABŞ-ın Azərbaycandakı səfiri Örl Litzenberger deyib. "Əgər ərazilər minalardan təmizlənməsə, məcburi köçkünlər ora qayıda bilməyəcəklər".

Diplomat həmçinin ABŞ-ın bu sahədə böyük təcrübəsi olduğunu, ən yaxşı texnikaları təqdim edə biləcəklərini, Qarabağda daha çox ABŞ şirkətlərini görmək istədiklərini də bildirib.

*Aynurə Xudaverdiyeva*

# Duda Ukraynaya 2 milyardlıq yardım etdiyini açıqladı

***Rusiya işğalçılarına qarşı mübarizəyə kömək etmək üçün Ukraynaya 240-dan çox tank və 100-ə yaxın zirehli texnika göndərib.***

"Unikal" xəbər verir ki, bunu Almaniyanın ""Bild" qəzetinə müsahibəsində Polşa prezidenti Anjey Duda deyib. "Ukraynaya ağır silahlar, tanklar lazımdır. Bunlar Ukraynanın ehtiyaclarıdır. İki gün əvvəl prezident Zelenski ilə danışdım. Biz tanklar, Ukraynanın xidmət göstərə biləcəyi 240-dan çox tank göndərdik. 100-ə yaxın zirehli texnika və silah-sursat, mərmi... Ümumilikdə 2 milyard dollar dəyərində silah göndərdik", - deyə ifadə edib.

*Gülayə Mecid*

**ELAN**

FHN, Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidməti tərəfindən Babayev Davud Elman oğlua verilmiş AA 08609 nömrəli gəmi bileti itdiyi üçün etibarsız sayılır.

# "Yüzlərlə azərbaycanlı və türk dənizçi minalı limanlarda qalıb" - Bloomberg

***Ukraynanın əsas limanlarında Qara və Azov dənizlərində minaların təmizlənməsinə hətta indi başlasaq belə, bu aylarla vaxt aparacaq. Bu barədə Beynəlxalq Dəniz Təşkilatının dəniz təhlükəsizliyi üzrə xüsusi müşaviri Piter Adams Bloomberg-ə müsahibəsində deyib.***

"ABŞ Kiyevin hərbi strategiyasını anlaya bilmir" - The New York Times- Hətta limanlar sabah açmaq istəsələr belə, gəmilərin bura daxil olub çıxması bir qədər vaxt aparacaq. Liman ərazilərində dəniz minalarını tamamilə təmizləmək isə bir neçə ay çəkəcək, - Adams deyib.



O həmçinin qeyd edib ki, Rusiya gəmiləri Ukraynanın Qara dənizə çıxışını əngəlləyib, taxıldan toyuğa qədər əsas qida məhsullarının dəniz ixracını faktiki olaraq dayandırıb. Bu isə qlobal ərzaq böhranını daha da gücləndirib.

Bundan əlavə, Ukrayna limanlarında 80-dən çox gəmidə 450-yə yaxın xarici dənizçi qalıb. Onların üçdə biri Filippindən, əhəmiyyətli hissəsi Türkiyə, Suriya və Azərbaycandandır.

Moskva Ukraynanı limanları Rusiyanın mümkün hücumlarından qoruyan minaları təmizləməkdən imtina etməkdə ittiham edir. Ruslar bu mənada genişmiqyaslı təchizat proseslərinin pozulmasına görə məsuliyyəti rədd edirlər. Limanların yenidən açılması cəhdləri uğursuzluğa düçar olur və Türkiyənin sövdələşməyə vasitəçilik səylərində isə hələlik ciddi irəliləyiş əlaməti yoxdur.

Nəşr xatırlatma kimi qeyd edib ki, mart ayında dənizdə üç sərbəst üzən mina aşkar edilib. Onlardan ikisi Türkiyə sahillərinə, biri Rumıniya sahillərinə gəlib çıxıb. Adamsın sözlərinə görə, Ukrayna yaxınlığında Qara dənizin şimal-qərbində ticarət gəmiləri fəaliyyətini tam dayandırıb(azvision).

*Tural Tağıyev*

# "Donbasın taleyi Severodonetskdə müəyyənləşib" - Zelenski

***"Severodonetsk Donbasdakı münaqişənin episentri olmaqda davam edir. Donbasın taleyi orada müəyyənləşir".***

"Unikal" xəbər verir ki, bunu Ukrayna prezidenti Vladimir Zelenski deyib.

"On il əvvəl bizim Donetsk güclü və inkişaf etmiş şəhər idi. Sonra Rusiya gəldi. Ancaq Ukraynanın geri qaytarılması, əlbəttə ki, baş verəcək, bu şəhərlər üçün normal həyat deməkdir. Mən bütün ukraynalıların dostu, Polşa Prezidenti Anjey Dudaya ölkəmizin Avropa perspektivini dəstəkləmək üçün Avropa ölkələrinə xüsusi səfərə başladığına görə minnətdaram. Biz bu ilin iyununda namizədliklə bağlı (Aİ-yə üzvlük) qərar verəcəyik. Bütün dostlarımız, bütün diplomatlarımız indi bunun üçün tam çalışırlar", - deyə o bildirib.

Zelenski ölkənin şərqindəki Severodonetsk şəhərinin mərkəzində Rusiya ordusu ilə davam edən şiddətli toqquşmalara toxunaraq, "Severodonetsk Donbasdakı münaqişənin episentri olmaqda davam edir. Biz öz mövqelərimizi qoruyuruq, düşmənə xeyli itki veririk. Bu, çox şiddətli döyüşdür, çox çətindir. Yəqin ki, bu müharibənin ən çətinlərindən biri. Donbasın taleyi orada müəyyənləşib", - deyə o, Severodonetskdəki münaqişələrin əhəmiyyətinə diqqət çəkib.



Ukrayna əsgərlərinin təltif edilməsi ilə bağlı fərmanlar imzaladığını vurğulayan Zelenski, "68-i ölümündən sonra olmaqla 285 əsgər dövlət mükafatına layiq görülüb" deyib.

*Gülayə Mecid*

# Rasmussen: "Ukraynaya lazım olan bütün silahları çatdırmalıyıq"

***Qərb ölkələri indi Rusiyanın təcavüzündən müdafiə üçün lazım olan bütün silahları Ukraynaya təhvil verməlidir.***

"Unikal" xəbər verir ki, bunu "Sky News" telekanalının efirində NATO-nun keçmiş baş katibi Anders Foq Rasmussen bildirib.

"Putin və Rusiya dondurulmuş münaqişənin uzun müddət davam edən, qaynayan məzmunu üzrə ekspertlərdir. Düşünürəm ki, Putinin məqsədi münaqişənin davam etdiyi müddətdə Ukraynada sabitliyi pozmaq və zəiflətməkdə davam etmək ola bilər. Hesab edirəm ki, bu, indi ən böyük riskdir və buna görə də biz Ukraynaya lazım olan bütün silahları çatdırmalıyıq", - deyə o bildirib.



Rasmussen əlavə edib ki, Avropa İttifaqı Putinin hərbi maşınının maliyyələşdirilməsini dayandırmalıdır.

Onun sözlərinə görə, tarix artıq göstərib ki, diktatoru sakitləşdirmək sülhü təmin etmir.

"Düşünürəm ki, tarix bizə diktatorları sakitləşdirməyin sülhə gətirib çıxarmadığını öyrədib. Əksinə, bu, müharibə və münaqişəyə gətirib çıxarır. Bəziləri Putini alçaltmağın təhlükəli olacağını düşünürlər. Təcavüzkarın əsassız müharibədən sonra sülh sazişi vasitəsilə ərazi faydaları əldə edə biləcəyi presedent yaratmaq yalnız digər diktatorları həvəsləndirəcək. Bu, çox təhlükəli siqnal göndərəcək".

# "Cəbrayıl"ın UEFA Region Kubokundakı rəqibi müəyyənləşdi

***UEFA Region Kubokunda Azərbaycanı təmsil edəcək "Cəbrayıl"ın rəqibi müəyyənləşib.***

Qol.az xəbər verir ki, Cavid Hüseynovun baş məşqçisi olduğu komanda yarışın ilkin mərhələsində Belarus "Kolos"u ilə üz-üzə gələcək. Bu komandalar 2-ci qrupda yarışacaqlar. Oyunlar Şamaxı Olimpiya Kompleksində keçiriləcək.




1-ci qrupun matçları isə Bakıda "Ask Arena"da təşkil olunacaq. Həmin qrupda "Basiani" (Gürcüstan), "Kaskelen" (Qazaxıstan) və "Tallina Zapoos" (Estoniya) mübarizə aparacaqlar.

Qrup matçları 23-29 iyunda keçiriləcək. Qrupun iki qalibi arasında keçiriləcək oyundan sonra qalibin növbəti mərhələdə hansı qrupda oynayacağı qətiləşəcək.

# Bir oyunda 60 qol, 41 avtoqol - 4 komandaya sanksiya

***CAR-da 4 futbol klubu ilə bağlı araşdırmalar başa çatıb.***

Apasport.az saytının məlumatına görə, yerli futbol federasiyası ötən ayın sonlarında 4-cü divizionda keçirilən iki şübhəli oyunun danışılmış olduğunu təsdiqləyib.

Yekunda klubların dördü də ömürlük futboldan kənarlaşdırılıb. Məsələ ondadır ki, son tur ərəfəsində iki komanda "Matiyasi" və "Şivulani Denjerous Tayqers" yuxarı liqaya vəsiqəyə iddia edib. Eyni xala malik rəqiblərin mübarizəsində sonuncular top fərqində (+16) öndə olub.

Çempionatın lideri son oyununda "Kotoko Heppi Boyz"u kötəkləyib - 33:1. Məğlub komanda bu qarşılaşmada 7 avtoqolla rəqibinə "kömək edib". Amma 3-cü liqaya vəsiqə üçün bu da yetərli olmayıb.

"Matiyasi" "Nsami Mayti Berds" üzərində daha ağlasığmaz qələbəyə sevinib - 59:1. Bu matçda isə 41 avtoqol yaşanıb.



Araşdırmalardan sonra dörd kluba futbol fəaliyyətindən kənarlaşdırılıb. Manipulyasiyada rolu olan bütün klub rəsmiləri 5-8 il müddətinə futboldan uzaqlaşdırılıb.

# "Sabah" Rusiya Premyer Liqasının bombardirini alır? - Musayevdən açıqlama

***"Sabah"ın baş məşqçisi Murad Musayev "Ufa"nın (Rusiya) hücumçusu Həmid Ağalarovu transfer edəcəklərinə dair yayılan xəbərlərə münasibət bildirib.***

Daha əvvəl Rusiyanın eurostavka.ru saytı "Sabah"ın Rusiya U-21 millisinin dağıstanlı hücumçusunu transfer etmək istədiyinə dair məlumat yayıb. İddia edilib ki, Azərbaycan tərəfi H. Ağalarovu milliləşdirmək də istəyir.



M.Musayev özü isə metaratings.ru saytına açıqlamasında deyib: "Hazırda mən məzuniyyətdəyəm. Ona görə də şərh verə bilmərəm. Transfer yoxdur, əgər olsaydı, nəsə deyərdim. Mən çox oyunçu ilə maraqlana bilərəm. Amma siz bilirsiniz ki, əgər transfer yoxdursa, o, şərh edilməməlidir".

Qeyd edək ki, H.Ağalarov 2021/22 mövsümü Rusiya Premyer Liqasının bombardiri olub (20 qol).

# Futbolda görünməmiş rəzalət

***Cənubi Afrikadakı iki futbol matçı hamını şoka salıb. 2-ci liqaya yüksəlmək üçün mübarizə aparan "Matiyasi" "Nsami Mighty Birds"lə oyunda 59:1 hesabı ilə qələbə qazanıb. Amma təəccübə səbəb olan təkcə bu heyrətamiz hesabın qeydə alınması olmayıb. Məsələ burasındadır ki, bu 59 qoldan 41-ni rəqib futbolçular öz qapılarına vurublar.***

3-cü yerdə olan "Matiyasi"nin üst liqaya vəsiqə qazanması üçün ona 18 top fərqli ilə qalib gəlməsi tələb olunub. Amma onlar rəqibi 58 top fərqi ilə məğlubiyyətə uğradıb. Oyundan sonra yerli futbol federasiyası araşdırma apararaq hər iki komandanın matçın nəticəsini əvvəlcədən razılaşdırdığı qənaətinə gəlib və bu klubları ömürlük bütün yarışlardan kənarlaşdırıb.

Lakin liqada danışılmış oyun təkcə bu oyunla bitməyib. "Matiyasi" ilə eyni xala malik, amma daha az qol fərqli olan digər komanda "Shivulani Dangerous Tigers" isə "Kototo Happy Boys"la görüşdə 33:1 hesabı ilə qələbə qazanıb. Bu oyunda isə rəqibin futbolçuları 7 dəfə avtoqol ediblər. Görüşdən sonra bu matçın da danışılmış olduğu ortaya çıxıb. Federasiyanın qərarı ilə bu iki klub da futboldan ömürlük uzaqlaşdırılıb.



# Anatoli Nuriyev "Sabah"da

***"Sabah" heyətini yeni futbolçu ilə gücləndirib.***



Apasport.az saytının məlumatına görə, Azərbaycan millisinin üzvü Anatoli Nuriyev bundan sonra Bakı təmsilçisinin uğurları üçün çalışacaq.

26 yaşlı yarımmüdafiəçi ilə müqavilənin müddəti 3 ildir.

Nuriyev karyerası ərzində Ukraynanın "Stal" (2018), "Minay" (2018-2021), "Kolos" (2021-2022) klublarında çıxış edib. Futbolçunun son komandası "Sumqayıt" olub.

Anatoli "Sabah"da 9 nömrəli formada çıxış edəcək.

# Əliyar Ağayev final matçına təyinat aldı



***FİFA referisi Əliyar Ağayev növbəti təyinatını alıb.***

Apasport.az saytının məlumatına görə, azərbaycanlı hakim Yunanıstan Super Liqasının pley-off oyununda ədaləti qoruyacaq.

Yunanıstan Futbol Federasiyasının dəvətinə əsasən, Ağayev elitada qalmaq uğrunda "Veriya" ilə "Lamiya" arasında keçiriləcək ilk final qarşılaşmasının baş hakimi olacaq. Ona Zeynal Zeynalov və Akif Əmirəli kömək edəcək.

Qarşılaşma iyunun 11-də baş tutacaq.

# "Real" "Monako"nun futbolçusu ilə anlaşdı

***"Real"ın yay fasiləsində heyətinə cəlb edəcəyi ikinci futbolçu müəyyənləşib.***



Apasport.az saytının məlumatına görə, Antonio Rudigerdən sonra "Monako"nun yarımmüdafiəçisi Orelyen Çuameni ilə anlaşıb.

Tərəflər arasında hərtərəfli razılıq əldə olunub, 22 yaşlı orta sahə oyunçusu hətta Fransa millisinin olduğu yerdə tibbi müayinədən də keçib. İndi yalnız keçidin rəsmiləşməsi qalıb. Bu transfer Knyazlıq klubuna 80 milyon avro qazandıracaq. "Monako" daha 20 milyon avro bonus kimi əldə edə bilər.

Qeyd edək ki, Orelyen Çuameni "Monako"ya 2020-ci ildə "Bordo"dan keçib.

# "Liverpul"u tərk etdilər

***Divoq Oriqi və Loris Karius "Liverpul"u tərk ediblər.***

Bu barədə klubun saytı məlumat yayıb. 27 yaşlı hücumçu və 28 yaşlı qapıçı ilə başa çatan müqavilənin yenilənməməsi qərarı verilib. Bundan başqa, Şeyi Odjo və Ben Vudbernlə də yollar ayrılıb.

Qeyd edək ki, Oriqi "Liverpul"dakı 8 illik karyerasında 175 oyuna 41 qol vurub. Karius isə 2016-cı ildə "mersisaydlılarla"la müqavilə bağlayıb. O, müxtəlif vaxtlarda icarə qaydasında "Beşiktaş" və "Union Berlin"də də oynayıb.

